QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



*"SƏS" qəzeti mənim üçün ən aziz qəzetdir*

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 033 (5505) 20 **fevral** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycan güclü beynəlxalq əməkdaşlıq formatı yaradıb

*"Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısı ölkəmizin qarşıdakı onilliklərdə dünya bazarlarının etibarlı enerji təchizatçısı olacağını bir daha bəyan etdi*




Səh 2

Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığı uğurla inkişaf edir



2

Əli Həsənovun "Xocalı soyqırımı" kitabı Bişkekdə qırğız və rus dillərində çap olunub



4

Yeni Azərbaycan Partiyasının imzatoplama kampaniyası uğurla davam edir

6

Natiq Məmmədov: "Seçici siyahıları martın 3-dək tam tərtib olunacaq"



4

"Jerusalem Post": Azərbaycanın Qaradağlı kəndində törədilmiş qanlı qırğın müasir erməni terrorizminə əsl sübutdur



5

Narışkin Ermənistanda nəyi müzakirə etdi?



4

12

Müxalifətçilərin səfərlərinin arxasında məkrli niyyətlər durur



12

"Ermənistanın İrana münasibətində dəyişikliklər baş verib"



16

Mariya Stadnik beynəlxalq turnirdə gümüş medal qazanıb



# Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığı uğurla inkişaf edir

## *Prezident İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığının uğurla inkişaf etdiyini bildirdi. Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şefçoviçin Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısında iştirakına toxunan Prezident İlham Əliyev onunla görüşü zamanı energetika və digər sahələrdə əlaqələrimizin inkişafı ilə bağlı səmərəli müzakirələrin aparıldığını dedi. Dövlətimizin başçısı özünün Avropa Komissiyasına son səfərindən keçən dövr ərzində əlaqələrimizin bütün sahələrdə çox yaxşı inkişaf dinamikası göstərdiyini vurğuladı. Prezident İlham Əliyev Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının təkcə energetika sahəsində deyil, digər sahələrdə də, o cümlədən siyasi, ticarət, investisiya, nəqliyyat, təhlükəsizlik, mədəniyyət sahələrində də genişləndirilməsinin vacibliyini qeyd edərək bütün bunların hazırda üzərində iş aparılan Avropa İttifaqı ilə Azərbaycan arasında yeni sazişdə öz əksini tapdığını vurğuladı.

Avropa İttifaqı-Azərbaycan əlaqələrinin bütün sahələrdə müsbət istiqamətdə inkişaf etdiyini deyən Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar əməkdaşlığımızın yaxşı perspektivləri olduğunu bildirdi. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həlli ətrafında geniş fikir mübadiləsi aparıldı, bu istiqamətdə səylərin münaqişənin sülh və danışıqlar yolu ilə həllinə yönəldilməsinin vacibliyi qeyd olundu.

Prezident İlham Əliyev bildirdi ki, Ermənistanın riyakar və qeyri-konstruktiv mövqeyi danışıqlarda tərəqqinin əldə edilməsinə başlıca maneədir. Ermənistan öz işğalçılıq siyasətini davam etdirir və işğal edilmiş torpaqlarımızda Azərbaycanın milli, dini və tarixi abidələrini məhv edir. Dövlətimizin başçısı vurğuladı ki, münaqişənin tezliklə həll edilməsi üçün Ermənistan işğal edilmiş torpaqlardan öz işğalçı qüvvələrini geri çəkməyə başlamalıdır və beynəlxalq hüququn norma və prinsipləri bərqərar olmalıdır.

## Rəsmi xronika

Prezident İlham Əliyev Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Pərviz İsmayılzadənin Gürcüstanın Batumi şəhərində Azərbaycan Respublikasının baş konsulu vəzifəsinə təyin edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Rasim Rzayevin Azərbaycanın İordaniyada səfiri vəzifəsinə təyin edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Arif Babayevin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətlərinə görə Arif İmran oğlu Babayev "Şərəf" ordeni ilə təltif edilsin.

* * *

Prezident İlham Əliyev 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında Sərəncam imzalayıb.



## Abbas Abbas oğlu Ələsgərov

**Azərbaycan ictimaiyyətinə ağır itki üz vermişdir. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri, Əməkdar memar Abbas Abbas oğlu Ələsgərov 2018-ci il fevralın 18-də ömrünün 81-ci ilində vəfat etmişdir. Abbas Ələsgərov 1937-ci il dekabr ayının 13-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1957-1963-cü illərdə Azərbaycan Politexnik İnstitutunun nəqliyyat fakültəsində mühəndis-inşaatçı ixtisası üzrə ali təhsil almışdır.**

Əmək fəaliyyətinə hələ tələbə ikən, 1959-cu ildə respublika "Xalqtəsərrüfatmaştəchizatsatış" idarəsində mühəndis kimi başlayan Abbas Ələsgərov 1960-1961-ci illərdə ixtisaslaşdırılmış "Sənayetikintimexanikləşdirmə" trestində texnik, usta və mühəndis, 1961-1962-ci illərdə Azərbaycan Respublikası Kommunal Təsərrüfat Nazirliyinin əsaslı tikinti şöbəsində mühəndis işləmiş, 1962-1976-cı illərdə Sənaye Tikinti Nazirliyində tikintidə yeni texnikanı tətbiq edən "Texniki tikinti təşkilatı" trestində böyük mühəndis, qrup rəhbəri, şöbə müdiri və baş mühəndis, 1976-1977-ci illərdə Sənaye Tikinti Nazirliyinin 4 nömrəli trestinin tikinti idarəsində baş mühəndis vəzifələrində çalışmışdır. O, 1977-1982-ci illərdə SSRİ Dövlət Tikinti və Arxitektura Komitəsinin "Azərdövlətsənayelayihə" İnstitutunda baş mühəndisin müavini, 1982-1983-cü illərdə Bakı Baş Tikinti İdarəsinin layihə konstruktor-texnoloji bürosunun, 1983-2007-ci illərdə isə Bakı Dövlət Layihə İnstitutunun direktoru vəzifələrini tutmuşdur.

Abbas Ələsgərov 2007-ci ildən ömrünün sonunadək Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri olmuş, eyni zamanda, 2007-2012-ci illərdə Azərbaycan Memarlar İttifaqına sədrlik etmişdir.

Tanınmış memar və inşaatçı Abbas Ələsgərov həyatını quruculuq işlərinə sərf etmiş və Azərbaycanda tikinti-memarlıq kompleksinin inkişafına töhfələr vermişdir. O, ölkə miqyasında bir sıra obyektlərin layihələndirilməsi və inşasının təşkili işlərinə rəhbərlik etmiş, yüksək peşəkarlığı, təşəbbüskarlığı və əməksevərliyi sayəsində mühüm əhəmiyyətə malik bu layihələrin uğurla həyata keçirilməsində təqdirəlayiq fəaliyyət göstərmişdir. Bakı şəhərinin bugünkü simasını müəyyən edən bir çox binaların, yaşayış massivləri və komplekslərinin tikinti layihələrinin, eləcə də Milli Parkın baş planının hazırlanmasında onun özünəməxsus xidmətləri vardır.

Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri kimi Abbas Ələsgərov tarixi abidələrin qorunması, şəhərsalmada tarixiliklə müasirliyin vəhdətinin təmin olunması və tikinti işlərinin planlı qaydada aparılması üçün bütün qüvvə və imkanları səfərbər etməklə üzərinə düşən vəzifələrə məsuliyyətlə yanaşmış və göstərilən etimadı daim doğrultmuşdur.

Abbas Ələsgərovun respublikada memarlığın inkişafında xidmətləri və şəhərsalma sahəsində uzunmüddətli səmərəli fəaliyyəti lazımınca qiymətləndirilmişdir. O, "Əməkdar mühəndis" və "Əməkdar memar" fəxri adlarına layiq görülmüş, müstəqil Azərbaycan Respublikasının ali dövlət mükafatlarından "Şöhrət" və 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordenləri ilə təltif edilmişdir. Tanınmış memar və mühəndis, bacarıqlı təşkilatçı və təvazökar insan Abbas Abbas oğlu Ələsgərovun xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

Allah rəhmət eləsin!

***İlham Əliyev***
***Mehriban Əliyeva***
***Artur Rasizadə***
***Oqtay Əsədov***
***Ramiz Mehdiyev***
***Abid Şərifov***
***Hacıbala Abutalıbov***
***Əbülfəs Qarayev***
***Ömər Eldarov***
***Elbay Qasımzadə***
***Rasim Əliyev***
***Dövlətxan Dövlətxanov***
***Gülçöhrə Məmmədova***
***Ərtegin Salamzadə***

# Azərbaycan güclü beynəlxalq əməkdaşlıq formatı yaradıb

*"Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısı ölkəmizin qarşıdakı onilliklərdə dünya bazarlarının etibarlı enerji təchizatçısı olacağını bir daha bəyan etdi*

***Xəbər verdiyimiz kimi, "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısı keçirildi. Tədbirə Azərbaycanın ev sahibliyi etməsinin ənənəvi hal alması ölkəmizin "Cənub Qaz Dəhlizi" kimi mühüm bir layihənin təşəbbüskarı və lideri olduğunu təsdiqləyir.***

Növbəti toplantı da Azərbaycanın güclü beynəlxalq əməkdaşlıq formatı yaratdığını və qarşıdakı onilliklərdə dünya bazarlarının etibarlı enerji təchizatçısı olacağını bir daha bəyan etdi. 2015-ci ilin fevral ayında Məşvərət Şurasının ilk toplantısı keçirildi. Layihənin həyata keçirilməsi üçün səylərin əlaqələndirilməsinə başlamaq əsas şərt idi. Məşvərət Şurasının toplantısı bu istiqamətdə mühüm rol oynadı. Uğurlu əməkdaşlıq növbəti illərdə də davam etdirildi və Məşvərət Şurasının ikinci iclası 2016-cı ilin, üçüncü toplantısı 2017-ci ilin fevral aylarında keçirildi. Bu il fevralın 15-də keçirilən dördüncü toplantıda "Cənub Qaz Dəhlizi" layihəsi üzrə ötən bir il ərzində görülən işlər müzakirə olundu və qeyd edildi ki, layihə uğurla irəliləyir.







Xatırladaq ki, "Cənub Qaz Dəhlizi" layihəsi dörd mühüm seqmentdən ibarətdir. İlk iki hissə Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsindən hasilata başlanması, "Şahdəniz-1" qazını Gürcüstan-Türkiyə sərhədinədək daşıyan Cənubi Qafqaz Boru Kəmərinin yeni həcmləri qəbul etmək üçün genişləndirilməsidir. Dəhlizin "onurğa sütunu" adlandırılan TANAP Türkiyənin ərazisi boyu 1850 kilometr məsafə qət edir. Bu kəmər Gürcüstan-Türkiyə sərhədindən başlayaraq, Türkiyə-Yunanıstan sərhədinədək uzanır. Sonuncu seqment isə TAP-dır. Bu boru xətti TANAP-la birləşərək Yunanıstanın, Albaniyanın ərazisindən, Adriatik dənizinin altından keçir və İtaliyanın cənubunda quru sahəyə çıxır.

Bu il layihə üçün əlamətdar bir il olacaq. Belə ki, hazırda "Şahdəniz-2"nin ilk qazını qarşılamaq üçün son addımlar atılır. CQBK-nın həm Azərbaycandan, həm də Gürcüstandan keçən hissələrində genişləndirmə işləri, demək olar ki, yekunlaşıb. Cari ildə, eləcə də, "Cənub Qaz Dəhlizi"nin ən böyük hissəsi olan TANAP-ın istifadəyə veriləcəyi gözlənilir. TAP-ın çəkilişində işlər uğurla davam edir. Odur ki, Məşvərət Şurasının toplantısında bütün dəhliz boyu yaxın vaxtlarda görüləcək işlər geniş müzakirə olunub və layihənin icra vəziyyəti qaneedici sayılıb. Toplantıda Azərbaycan tərəfi yaranmış əməkdaşlıq formatının səmərəli olduğunu və bunun daha yaxşı nəticələrə yol açacağını bəyan edib: "Cənub Qaz Dəhlizi" layihəsi Azərbaycanın indiyədək çox uğurlu olan və Azərbaycana öz iqtisadiyyatını şaxələndirməyə kömək edən enerji strategiyasının əsas elementlərindən biridir. Biz enerji ehtiyatlarından istifadə edərək qeyri-neft sektoru, insan kapitalı və infrastruktura investisiya yatırmışıq, bununla da, iqtisadiyyatımızın uzunmüddətli davamlı inkişafını təmin etmişik. Sözsüz ki, bizim əvvəlki illərdə Azərbaycanda həyata keçirdiyimiz layihələr "Cənub Qaz Dəhlizi"nin reallaşması üçün güclü bünövrə yaradıb".

Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti, Məşvərət Şurasının həmsədri Maroş Şefçoviçin budəfəki toplantıda da iştirak etməsi tədbirin əhəmiyyətini vurğulayan amillərdəndir. M.Şefçoviç layihənin uğurla həyata keçirilməsində Məşvərət Şurasının toplantılarının əhəmiyyətini bir daha qeyd etmişdir: "Bu layihəni ilk dəfə müzakirə etdikdən sonra "Cənub Qaz Dəhlizi"nin əhəmiyyəti artdı. Biz bu layihənin Avropada daha da çoxsaylı ölkələr üçün necə də cəlbedici olduğunu gördük, istər Mərkəzi, istər Şərqi Avropa olsun, istərsə də Qərbi Balkan ölkələri. Buna görə, bu layihənin ötən ilin noyabr ayında qəbul olunan Şərq Tərəfdaşlığı Sammitinin Bəyannaməsində strateji əhəmiyyət daşıyan layihə kimi göstərilməsi də çox aydın idi. Avropa İttifaqı adından biz bu uzun boru kəmərinin bütün əsas komponentlərinin ümumi maraq dairəsi statusuna malik olan layihə çərçivəsində işlənilməsini və Avropa qurğularının birləşməsindən faydalanmasını təmin etməklə bu layihənin strateji əhəmiyyətini vurğulamaq istəyirik". Məşvərət Şurası çərçivəsində nazirlərin toplantısı işini plenar sessiya ilə davam etdirdi. Azərbaycanın energetika naziri Pərviz Şahbazov bütün seqmentlər üzrə işlərin cədvələ uyğun getdiyini qeyd etdi. Layihənin əhatə etdiyi bütün ölkələrdə sosial inkişafa təkan verdiyini, yeni iş yerlərinin yaradıldığını diqqətə çatdırdı. Türkiyənin enerji və təbii ehtiyatlar naziri Berat Albayrak ötən aydan TANAP boru xəttinə sınaq məqsədilə təbii qaz vurulduğunu bildirdi. Gürcüstanın Baş nazirinin birinci müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Dmitri Kunsişvili "Cənub Qaz Dəhlizi"nin Gürcüstanın inkişafında müstəsna rola malik olduğunu vurğulamaqla yanaşı, layihənin icrası ilə bağlı tərəfdaş ölkələrin göstərdiyi səyləri yüksək qiymətləndirdi.

İtaliyanın iqtisadi inkişaf nazirinin müavini İvan Skalfarotto enerji marşrutlarının şaxələndirilməsi baxımından, layihənin önəmini vurğuladı. Əsas seqmentlərdən biri olan TAP-ın İtaliya və Balkan regionu üçün əhəmiyyətini bir daha qeyd etdi. ABŞ Dövlət Departamentinin Enerji Ehtiyatları Bürosunun beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi və əlaqələndiricisi vəzifəsini icra edən xanım Syu Saarnio bildirdi ki, Amerika Birləşmiş Ştatları hökuməti Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan "Cənub Qaz Dəhlizi" layihəsini hər zaman qəti surətdə dəstəkləyib.

Gələcəkdə interkonnektorların tikilməsi Azərbaycan qazının təkcə "Cənub Qaz Dəhlizi" layihəsində iştirak edən ölkələrə deyil, digər ölkələrə də çatdırılmasına imkan yaradacaq. Böyük Britaniyanın Baş nazirinin ticarət elçisi xanım Baronessa Emma Nikolson Azərbaycanın Avropa qaz bazarında etibarlı təchizatçı olduğunu dedi. Eləcə də, Birləşmiş Krallıqla Azərbaycan arasında, o cümlədən, BP ilə SOCAR arasında enerji əməkdaşlığından qürur duyduqlarını söylədi.

Məşvərət Şurasının budəfəki toplantısına, ilk dəfə olaraq, Türkmənistan nümayəndəsi də qatılmışdı. Bu ölkəni Türkmənistan prezidentinin müşaviri Yaxşıgəldi Kakayev təmsil edirdi. O da layihənin uğurla irəliləməsindən məmnunluğunu bildirdi. Tədbirdə iştirak edən BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz, TANAP-ın baş direktoru Saltuk Düzyol, TAP-ın icraçı direktoru Luka Şirati və başqaları layihə üzrə görülmüş işlər və qarşıda duran vəzifələr ətrafında geniş müzakirələr apardılar. Tədbirin sonunda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısının iştirakçıları görüşün yekunlarına dair "Birgə Bəyannamə" də imzaladılar.

***"Səs" Analitik Qrupu***

# Əli Həsənovun "Xocalı soyqırımı" kitabı Bişkekdə qırğız və rus dillərində çap olunub




Bişkekdəki "Turar" nəşriyyatında Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun "Xocalı soyqırımı" kitabı qırğız və rus dillərində çap olunub.

AZƏRTAC xəbər verir ki, kitabı qırğız dilinə Bekten Dıykanbay tərcümə edib. Dünyanın müxtəlif dillərində nəşr edilmiş kitabda son iki əsrdə azərbaycanlılara qarşı erməni millətçiləri tərəfindən məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasəti təhlil olunur. Nəşrdə XX əsrin 80-ci illərinin ikinci yarısından başlayaraq Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları və işğalçılıq siyasəti, o cümlədən 1988-1993-cü illərdə azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasəti elmi mənbələr əsasında araşdırılır. Xüsusilə XX əsrin sonlarında ermənilərin Xocalıda törətdikləri soyqırımı aktı bütün insanlığa və bəşəriyyətə qarşı yönəldilmiş ən ağır cinayətlərdən biri kimi səciyyələndirilir.

Müəllif 1992-ci il fevralın 26-da Ermənistan silahlı qüvvələri tərəfindən Xocalı şəhərinin işğalı zamanı həyata keçirilən cinayətləri, xüsusilə dinc əhaliyə qarşı törədilən vandalizm aktlarını xarici mənbələrə əsasən geniş təhlil edir. Xocalı soyqırımının dünyaya çatdırılması, ona siyasi-hüquqi qiymətin verilməsi istiqamətində görülən işlər, eləcə də Xocalı faciəsinin beynəlxalq aləmdə soyqırımı aktı kimi tanınması məsələləri geniş tədqiq olunur. Kitabda Xocalı soyqırımının tanınması ilə bağlı qəbul edilən sənədlər müxtəlif dillərdə verilib. Kitab xarici siyasət məsələləri ilə məşğul olan mütəxəssislər, geniş oxucu auditoriyası üçün nəzərdə tutulub.

"Tarixdə görünməmiş müsibət" adlı "Ön söz"də Azərbaycanın Qırğızıstandakı səfiri Hidayət Orucov qeyd edir ki, uzun müddət ictimai-siyasi fəaliyyətlə məşğul olan elmlər doktoru, professor Əli Həsənov siyasət, geosiyasət və beynəlxalq münasibətlərə həsr olunan müxtəlif əsərlərin müəllifidir. Bu kitab Dağlıq Qarabağ münaqişənin ən qanlı soyqırımlarından birinə həsr olunub. Xocalı soyqırımı XX əsrin digər dəhşətli faciələri - Xatın, Xirosima, Naqasaki və Sonqmi kimi faciələrlə bir sırada dayanır.

"Ön söz"də deyilir ki, ermənilərin Azərbaycanın tarixi ərazilərinə qarşı iddiaları hələ 1918-1920-ci illərdən başlayıb, İrəvan xanlığı və Zəngəzurda yaşayan azərbaycanlılara qarşı soyqırımları törədilib. Ermənilərin Azərbaycana qarşı ərazi iddialarının yeni mərhələsi 1988-ci ilin fevral ayından başlayıb. Onlar Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsinin Ermənistana birləşdirilməsi ilə bağlı qeyri-qanuni tələblərlə çıxış edib, bu tələblər Ermənistan SSRİ-nin rəhbərliyi tərəfindən açıq-aşkar dəstəklənib. 1988-1989-cu illərdə azərbaycanlılara qarşı törədilən deportasiya nəticəsində 214 nəfər soydaşımız öldürülüb.

Bildirilir ki, 1992-1993-cü illərdə Dağlıq Qarabağ və ona bitişik olan yeddi rayon, yəni Azərbaycan ərazisinin 20 faizi işğal olunub. Bunun nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" kampaniyası cinayətkarları məsuliyyətə cəlb etmək üçün dünyanın bütün qüvvələrini səfərbər edir. Qeyd olunur ki, hadisələrdən 26 il keçməsinə baxmayaraq, Xocalıda soyqırımı törədənlər hələ də məsuliyyətə cəlb olunmayıblar. Bu cür cəzasızlıq regionda sülhün əldə edilməsi və ədalətin bərpası üçün ciddi maneədir. Hazırda da Ermənistanın hərbi qüvvələri atəşkəs rejimini hər gün pozaraq, Azərbaycanın dinc əhalisini və mülki obyektləri atəşə tutur, bu da insanların ölümünə səbəb olur.

Kitab müəllifinin əsas məqsədi soyqırımın dəhşətlərini dünya ictimaiyyətinə çatdırmaq və bütün bəşəriyyəti zorakılığa qarşı mübarizədə birləşdirərək, cinayət törədənlərin məsuliyyətə cəlb edilməsidir. Nəşrin fotoalbom hissəsinə Xocalı soyqırımının dəhşətlərini əks etdirən fotoşəkillər, Ermənistan tərəfindən işğal edilmiş ərazilərimizin xəritələri daxil edilib.

# Müdafiə naziri Avropa İttifaqının xüsusi nümayəndəsi ilə görüşüb



Fevralın 19-da Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə cəbhə xəttindəki hazırkı vəziyyət müzakirə olunub.

General-polkovnik Z.Həsənov beynəlxalq birlik tərəfindən tanınan Azərbaycan ərazilərinin 20 faizinin Ermənistanın işğalı altında olduğunu və danışıqlar prosesinin bu günədək nəticəsiz qaldığını bir daha xatırladıb. Müdafiə naziri cəbhə xəttində iki silahlanmış ordunun daim üz-üzə dayandığını vurğulayaraq, müharibənin hər an başlaya biləcəyini istisna etməyib. Nazir qeyd edib ki, beynəlxalq qurumlar Dağlıq Qarabağ münaqişəsinin fəsadlarının araşdırılması ilə deyil, onu yaradan səbəblərin köklü surətdə aradan qaldırılması ilə məşğul olmalı və münaqişənin bütövlükdə həllinə səy göstərməlidirlər.

T.Klaar Cənubi Qafqaz regionunda sabitliyin təmin olunması üçün münaqişənin tez bir zamanda sülh yolu ilə həllinin vacibliyini qeyd edərək Avropa İttifaqının bu istiqamətdə danışıqların davam etdirilməsinin tərəfdarı olduğunu vurğulayıb.

# MSK-nın növbəti iclası keçirilib



Dünən Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib. SİA-nın verdiyi məlumata görə, əvvəlcə Komissiyanın 17 fevral 2018-ci il tarixində keçirilmiş iclasının protokolu təsdiq edilib.

Sonra ölkə üzrə seçicilərin daimi siyahısının tərtibinə dair məsələyə baxılıb. Komissiya üzvləri tərəfindən aparılan müzakirələrdən sonra Azərbaycan Respublikası üzrə 2018-ci ilin daimi seçici siyahılarının dəqiqləşdirilməsi, tərtib edilməsi, təsdiq edilməsi və ictimailəşdirilməsinin cari ilin martın 3-dək başa çatdırılması qərara alınıb.

Komissiyanın iclasında həmçinin, 2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədliyi özü tərəfindən irəli sürülmüş Ramazan Ələkbər oğlu Bəkirovun namizədliyinin irəli sürülməsi təsdiq olunub. Beynəlxalq təşkilatların, xarici ölkələrin diplomatik nümayəndəliklərinin və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdiyi iclasda cari məsələlərə də baxılıb.

# Natiq Məmmədov: "Seçici siyahıları martın 3-dək tam tərtib olunacaq"



Mərkəzi Seçki Komissiyasının (MSK) bu gün keçirilən iclasında ölkə üzrə seçicilərin daimi siyahısının tərtibinə dair məsələ müzakirə olunub. SİA-nın verdiyi məlumata görə, MSK sədrinin müavini Natiq Məmmədov deyib ki, Azərbaycanda hər il mayın sonuna qədər seçici siyahıları hazırlanır. O bildirib ki, prezident seçkilərinin aprelin 11-nə təyin edilməsi bu prosesi sürətləndirib: "Seçici siyahıları səsvermə gününə 35 gün qalmış hazır olmalıdır. Martın 3-nə qədər seçici siyahıları tərtib və təsdiq ediIə bilər".

MSK sədrinin müavini qeyd edib ki, bu istiqamətdə işlər davam etdirilir: "Ötən illə müqayisədə seçicilərin sayı 28 344 nəfər artıb. Qeyd edək ki, Azərbaycanda prezident seçkiləri aprelin 11-nə təyin edilib.

# 23 saylı Nəsimi-Səbail seçki dairəsini əhatə edən məntəqələrdə seçkilərə ciddi hazırlıq işləri görülür



Fevralın 19-da 23 saylı Nəsimi-Səbail seçki dairəsi dairə seçki komissiyasının üzvləri və məntəqə seçki komissiyalarının sədrləri üçün ixtisaslaşdırılmış üçgünlük kurslara start verilib.

AZƏRTAC xəbər verir ki, kurslar Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın seçki komissiyalarına aid olan hissəsinin icrası ilə əlaqədar təşkil edilib. Kursların açılışında çıxış edən dairə seçki komissiyasının sədri Ağabala Quliyev aprelin 11-də keçiriləcək prezident seçkilərinin ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə olduğunu söyləyib. O bildirib ki, Mərkəzi Seçki Komissiyasının təqvim planına uyğun olaraq 23 saylı Nəsimi-Səbail seçki dairəsini əhatə edən məntəqələrdə prezident seçkilərinə ciddi hazırlıq işləri görülür. Seçici siyahıları yenilənib. Siyahıların təkmilləşdirilməsi, habelə asayişin qorunmasında güc strukturlarının seçki komissiyaları ilə qarşılıqlı əlaqələrinin qurulması istiqamətində müvafiq işlər davam etdirilir. Dairə seçki komissiyası prezident seçkilərinin Seçki Məcəlləsində, Konstitusiyada və digər qanunvericilik aktlarında nəzərdə tutulmuş qaydaya, təlimata uyğun yüksək səviyyədə keçirilməsini təmin edəcək.



İxtisaslaşdırılmış kurslarda, həmçinin prezident seçkilərinə hazırlıq prosesində dairə və məntəqə seçki komissiyalarının üzərinə düşən vəzifələrdən ətraflı danışılıb. Qeyd edilib ki, qanunvericiliyə əsasən prezident seçkiləri günü məntəqələrdə görülən işlər və səsvermə prosesi haqqında məlumatların cəmiyyətə çatdırılması üçün yerli və beynəlxalq müşahidəçilərin, KİV-lərin fəaliyyətinə hər cür şərait yaradılacaq. Sonra kurs iştirakçılarının sualları cavablandırılıb.

# Narışkin Ermənistanda nəyi müzakirə etdi?



Rusiya Xarici Kəşfiyyat İdarəsinin (XKİ) rəhbəri Sergey Narışkin Ermənistana səfərə gedib. SİA-nın erməni mətbuatına istinadən verdiyi xəbərə görə, Narışkin Ermənistan Milli Təhlükəsizlik Xidmətinin (MTX) direktoru Gergi Kutayanla görüşüb. Görüş zamanı tərəflər beynəlxalq terrorizmlə mübarizə məsələlərini müzakirə edib.

# "Jerusalem Post": Azərbaycanın Qaradağlı kəndində törədilmiş qanlı qırğın müasir erməni terrorizminə əsl sübutdur

***İsrailin "Jerusalem Post" qəzeti siyasi şərhçi Arye Qutun "Azərbaycanın Qaradağlı kəndində törədilmiş qanlı qırğın müasir erməni terrorizminə əsl sübutdur" sərlövhəli məqaləsini dərc edib.***

AZƏRTAC xəbər verir ki, müəllif məqalədə Holokostun yəhudi xalqının yaddaşında yaşayan dəhşətli və dözülməz faciə olduğunu yazır. Qeyd edir ki, bu, kobud və vəhşi faşist rejiminin yəhudi xalqına verdiyi sonsuz ağrıdır, ona qarşı həqarətdir, bu xalqın amansızcasına məhv edilməsidir. Holokost kimi dəhşətli əzabları yaşamış yəhudi xalqının nümayəndələri taleyin oxşar zərblərinə tuş gəlmiş digər xalqların ağrısına həmişə şərikdir.

Məqalədə oxucuların diqqəti Dağlıq Qarabağ münaqişəsi zamanı azərbaycanlıların yaşadıqları kənd və rayonlarda ermənilərin törətdikləri genosid aktlarına cəlb edilir. Bildirilir ki, bu hadisələr zamanı erməni işğalçıları bir çox tarixi abidələri dağıdıb, yerli azərbaycanlı əhalini məhv ediblər. Müasir tarixdə Qaradağlı faciəsinə oxşar hadisələr dünyanın bir çox yerlərində baş verib və dünya ictimaiyyəti bunlardan yaxşı xəbərdardır. Məsələn, 1995-ci ilin iyul ayında etnik serb millətçiləri Bosniyanın Srebrenitsa şəhərində 17-70 yaş arasında olan 10 min müsəlmanı qətlə yetirib, bir çoxu diri-diri kütləvi məzarlıqda basdırılıb. Həmin dövrdə Bosniyanın 13 yaşayış məntəqəsində müsəlmanlara qarşı kütləvi qırğınlar törədilib. Bu hadisələr nəticəsində 200 mindən çox günahsız insan öldürülüb, minlərdə adam yaralanıb, 20 milyondan çox insan evindən-ocağından didərgin düşüb. Birləşmiş Millətlər Təşkilatı, Avropa Parlamenti və başqa beynəlxalq təşkilatlar 13 Bosniya məntəqəsində törədilmiş bu qırğınlardan yalnız birini - Srebrenitsa qətliamını rəsmi olaraq tanıyır, amma ermənilərin azərbaycanlılara qarşı törətdiyi genosidi görməzliyə vururlar.

1985-ci il noyabrın 28-də bədnam erməni terroristi, ASALA erməni terror təşkilatının lideri Monte Melkonyan Fransada 6 il müddətinə həbs olunub. 1990-cı ildə həbsxanadan çıxandan sonra o, dərhal Ermənistana gedir, terror əməllərinə davam etmək üçün Dağlıq Qarabağa göndərilir. ASALA-nın rəhbərlərindən biri olan peşəkar terrorçu Melkonyan dünyada türk diplomatlarının ölümü ilə nəticələnən bir sıra terror aktlarının təşkilatçısıdır. Melkonyan bir çox illər ərzində dünyanın qaynar nöqtələrində, o cümlədən Livanda, Bekaa vadisində İsrailə qarşı terror aktları törədib. İsrail xüsusi xidmət orqanları onu axtarsa da ələ keçməyib. Azərbaycanın Xocavənd rayonunun işğalı vaxtı o, erməni terror qrupunun komandiri idi.

1992-ci ilın fevral ayında Monte Melkonyanın rəhbərliyi altında erməni silahlı qüvvələri və Livanın "Arabo" və "Aramo" terror qruplarında məşq keçmiş erməni dəstələri eyni vaxtda hücum edərək Xocavənd rayonunun Qaradağlı kəndini hər tərəfdən mühasirəyə alır. Sonradan məlum olur ki, 366-cı rus alayının əsgər və zabitləri də işğalda iştirak ediblər. Aramo, Arabo və Avonun (Monte Melkonyan) muzdluları Xankəndidə yerləşən 366-cı motoatıcı alayın köməyi ilə 1992-ci il fevral ayının 17-də mühüm strateji əhəmiyyəti olan Qaradağlı kəndini işğal edib. Ermənilər ondan bir həftə sonra Xocalı genosidini törədiblər.

Qaradağlı uğrunda döyüşlərdə 145 nəfər öldürülüb, onlardan 54-ü bir gündə qətlə yetirilib. Ümumiyyətlə


Subscribe to our FREE Daily News Blast | Enter e-mail address here | ADD ME

THE JERUSALEM POST

02.19.2018 | 4 Adar, 5778

Arab-Israeli Conflict | Israel News | Opinion | Middle East | Diaspora | Israeli-Innovation | American Politics | Not Just News | Premium | Christian News | Green Israel | Blogs

FABAY finansmanı ile 48 aya kadar 0 Faizli Size Özel Esnek Ödeme Planları +90 444 9631

NEWS FROM ARYE GUT

By ARYE GUT | 02/18/2018 23:58

The bloody massacre in Azerbaijani Garadagli village is a real manifestation of modern Armenian terrorism

Share on Facebook | Twitter | Google Plus

Share on Facebook | Share on Twitter

The Holocaust is a terrible and unbearable tragedy in the memory of the Jewihsh people. It is a pain, humuliation, brutality and extermination of the Jewish people by the brutal and frantic fascist regime.Representatives of the Jewish nation, which experienced such a terrible tragedy as the Holocaust, always sympathize with the tragedies of other peoples who survived the same blows of fate.

One of unexamined in depth pages of the history of Azerbaijan is the genocidal events perpetuated in the villages and regions resided by Azerbaijanis in the course of the Nagorno-Karabakh conflict, stirred up again. During these events, the Armenian occupants have destroyed many historical monuments, along with

Sponsored Articles

Play This Strategy Game for 1 Minute & See Why Everyone is Addicted!

isə, erməni muzdlularına qarşı döyüşdə Xocavənddə 154 nəfər öldürülüb, onlardan 15-i qadın, 13-ü uşaqdır. Yerli müdafiə batalyonunun döyüşçüləri son nəfəsə qədər vuruşub, böyük igidlik nümayiş etdirib, amma kömək gəlmədiyinə görə mühasirədən çıxa bilməyib.

Doqquz gündən sonra "Arabo" erməni dəstələri Xocalının günahsız əhalisinə qarşı genosid törədib. Bu genosid aktında Monte Melkonyan, Ermənistanın hazırkı prezidenti Serj Sarkisyan, keçmiş müdafiə naziri Seyran Ohanyan və digər erməni başkəsənləri iştirak ediblər. Bu canilər orada 613 nəfəri qətlə yetirib. Onların arasında uşaqlar, qadınlar, qocalar və mülkü əhali də var. Min nəfərə qədər insan ömürlük şikəst olub. Həmin faciə gecəsi 1275 nəfər insan əsir götürülüb, 150 nəfərin taleyi hələ də məlum deyil.

Monte Melkonyanın qardaşı Markar Melkonyan özünün "Qardaşımın yolu: Bir amerikalının Ermənistana həlledici səfəri" kitabında yazır: "Doqquz il əvvəl Monte döyüş təlimi gündəliyində yazmışdı: "Komandir pusquda atəş açmaq əmrini öz bildiyi formada verməlidir (əvvəlcə B-7 qranatomyotu ilə ya da daha çox itkiyə səbəb olan bir silahla atəş açmaq lazımdır)".

İndi o, özü B-7 qranatomyotunu çiyninə götürüb, hədəfi seçib və tətiyi basıb. Birinci atəş müdafiə xəttini keçib ikinci mərtəbədə pəncərənin küncünü dağıdıb, içəridə partlayan qəlpələrin gur alovu bayıra vurub. Həmin atəşdən sonra ermənilər kəndi gülləbaran etməyə başlayıb, sonra kəndə dolublar. Güllə yağışı altında qalan azərbaycanlı müdafiəçilər bir neçə kilometr arxada olan Ağdama radio ilə xəbər verirlər ki, onlar hücumun qabağını ala bilmirlər. Müdafiəçilərin cavab atəşləri susandan sonra Monte B-7-ni yerə qoyub ermənilərin Qaradağlını hər tərəfdən necə mühasirəyə aldığını seyr etməyə başlayır.

Axşama yaxın, saat beşdə erməni dəstələri öz məqsədlərinə çatdılar. Həmin gün ermənilərdən yalnız bir nəfəri öldü, yük maşınının kuzasında isə qırx səkkiz azərbaycanlı əsir vardı. Onları sonradan erməni əsirlərlə dəyişmək üçün Xankəndiyə apardılar. Montenin ilk dəfə komandirlik etdiyi Qaradağlı döyüşü sona çatırdı. Amma tezliklə vəziyyət dəyişdi. "Arabo" və "Aramo" dəstələri qırx səkkiz əsiri, o cümlədən bir neçə qadını və başqa mülki şəxsləri kəndin kənarındakı xəndəyə doldurdu. Əsirlərdən biri sarıqlı əlinin altında saxladığı qranatın fitilini çəkib partlatdı. Partlayış erməni döyüşçüsü Levonun ayağını üzdü. "Arabo" və "Aramo" döyüşçüləri öldürülmüş yoldaşlarına görə onsuz da qəzəbli idi, ona görə də onlar əsirləri süngü ilə, güllə ilə öldürməyə başladılar. Əsirləri son nəfərinədək qətlə yetirdilər.

1992-ci il fevral ayının 15-də erməni silahlı dəstləri hər tərəfdən Qaradağlı kəndinə hücum etdi. Qonşu erməni kəndindən olan silahlılar, muzdlular, 366-cı rus alayının əsgər və zabitləri bu hücumda iştirak edirdi. Amma kəndə yaxınlaşmaq elə də asan deyildi.

Yerli məktəbin direktoru Nobil Zeynalov, zabit Xanəli Hüseynov, könüllü dəstənin döyüşçüsü Altay Hasanov birinci postda idilər. Döyüş çox ağır idi. Kəndin cəsur qadınları aramsız atəş altında olan döyüşçülərə silah və ərzaq gətirir, yaralılara ilk yardım göstərir, onları arxaya daşıyır, yenidən atəş nöqtəsinə gətirirdilər.

Qaradağlı döyüşünü görən sakinlərin dedikləri Melkonyanın sözlərini tamamilə təsdiq edir, baş verənləri təfərrüatı ilə çatdırır.

Girovluqdan azad edilmiş İlqar Hüseynovun ifadəsi:

-1992-ci il fevral ayının 15-də səhər saat 6-da bizim kəndə hər tərəfdən hücuma keçdilər. Biz kənddə 118 nəfər idik. Onun 11-i qadın, qalanları isə kişi idi. Döyüş başladı, düzdür, bizim texnikamız yox idi, ancaq biz onlara layiqincə cavab verirdik. Bir sutka biz onlarla döyüşdük. Bizdən 8 nəfər həlak oldu, sayımızın azalmasına baxmayaraq, biz döyüşü davam etdirirdik. Erməniləri vurub kənddən çıxardıq. Fevralın 16-sı günü ermənilər yenidən hücuma başladılar. Onlar texnika ilə hücuma keçdilər, biz artıq tab gətirə bilmirdik. Onlar tərəfdən döyüşdə əsasən muzdlular iştirak edirdilər. Onlara başçılıq edən Manvel (ad şərti olub) deyilənə görə, Fransadan gəlmiş erməni idi.

Fevralın 17-də saat 3-də artıq silahımızın qurtardığını bilib atəşi dayandırdılar. Ona görə ki, onlardan ölən çox idi. Ermənilər biri-birinə deyirdilər ki, bizdən (ermənilərdən) çox adam ölüb. Bir nəfərimizi kəndin içində ağacla döyə-döyə öldürdülər. Sonra 92 girovu götürüb Xankəndi istiqamətinə apardılar. "Bəylik bağı"na çatanda 32 nəfərimizi orada güllələdilər və güllələməklə ürəkləri soyumadığı üçün başlarını kəsib sellofan torbalara yığırdılar. Meyitləri isə silos quyusuna doldurdular. Üç kilometr getdikdən sonra isə daha bir nəfəri güllələdilər. Sonra bir nəfəri də güllələdilər.

Girovluqdan azad edilmiş Tevon Tağıyevin ifadəsi:

-1991-ci ilin sonlarında Qaradağlı kəndi ətraf kəndlərdə yaşayan ermənilər tərəfindən mühasirəyə alındı. Kəndə gediş-gəliş tamam kəsilmişdi. 1992-ci ilin yanvar ayından başlayaraq qadınları və uşaqları helikopterlərin köməyi ilə kənddən çıxarmağa başladıq. Kəndə hücumlar ara verməirdi. Fevral ayından artıq helikopterlər də gəlmədi. Kəndin ətrafla əlaqəsi tam kəsildi, kəndə hücumlar isə dayanmadı. Ayın 17-dək kəndi müdafiə edə bildik. Kənardan heç bir kömək gəlmədi. Nəhayət, güllələr qurtardı və erməni silahlı birləşmələri kəndi işğal etdi.

Kəndi işğal etdikdən sonra ermənilər kəndə hücum vaxtı öldürülmüş ermənilərin meyitlərini kolxoz idarəsinin qarşısına düzüb çəkiliş aparırdılar. Bir nəfər qadın jurnalist veriliş hazırlayırdı. Ermənilər həmin şəxslərin guya erməni kəndinə hücum edən azərbaycanlılar tərəfindən öldürüldüyünü dünyaya çatdırırdılar.

117 nəfər kənd sakinini iki yük maşınına (cavanları ayrı, yaşlıları ayrı) yığdılar və Xankəndi istiqamətinə apardılar. Kəndin kənarına çatmamış iki nəfəri də maşından yerə salıb güllələdilər. Kəndin 2 kilometrliyində yerləşən "Bəylik bağı"nda bizdən arxada gələn maşını saxladılar. Təxminən aramızda 50-60 metr məsafə olardı. "Bəylik bağı"nda erməni qadın və uşaqlar yığışıb çalıb-oynayırdı. Maşını da onların yanında saxlayıb düşməyi əmr etdilər. Cavanlar düşmək istəmədiyi üçün maşının üstünə atəş açdılar və bir neçə adam qətlə yetirildi. Camaat məcbur qalıb maşından töküldü. Toy-bayram edən erməni qadın və uşaqların gözü qarşısında Qaradağlıdan olan cavanları sıraya düzüb güllələdilər. Mənim oğlum Telman dözməyib gizlətdiyi qranatı çəkib qışqıraraq ermənilərin üstünə yürüdü. Qranat partladı və Telman özü ilə on erməni də öldürdü. "Bəylik bağı"nda ermənilər 33 Qaradağlı sakinini qətlə yetirdilər. Sonra meyitləri yaxınlıqdakı silos quyusuna töküb basdırdılar. Bir az getdikdən sonra Cəmiyyət kəndində mülki ermənilərin gözü qarşısında iki nəfəri də güllələdilər. Xankəndiyə 5-6 kilometr qalmış hamını maşınlardan düşürüb paltarlarını soyundurdular. Bizi piyada Xankəndiyə gətirdilər. Yol boyu mülki ermənilər bizə daş atır və tüpürürdülər. Qaradağlı kəndinin Ermənistan silahlı birləşmələri tərəfindən işğalı nəticəsində Azərbaycan Respublikasının 26 vətəndaşı hazırda (15 fevral 2017-ci il tarixə olan məlumat) itkin düşmüş şəxs kimi Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında qeydiyyatdadır. Onlardan 15 nəfərin əsir-girov götürülməsi və saxlanılması barədə şahid ifadələri var. İşğal zamanı əsir və girov götürülmüş sakinlərdən 50 nəfər müxtəlif vaxtlarda azad edilib.

Bütün bu qəddar və qeyri-insani hərəkətlər dünyaya çar çəkib özünü "soyqırımı" qurbanı kimi, kasıb və bədbəxt göstərməyə çalışan erməni terrorçuları tərəfindən həyata keçirilib. Bu hadisələr XX əsrin sonunda dünya ictimaiyyətinin gözü qarşısında törədilib. Belə faciələrə laqeyd qalmaq mümkün deyil, çünki cinayət və bu kimi şər əməlləri cəzalandırmadıqca onların yenidən təkrarlanması ehtimalı artır.

Müxtəlif mənbələrdən bilirik ki, Azərbaycanın işğal olunmuş torpaqlarında erməni terrorçuları azərbaycanlı məhbusları alman faşistlərinin bir vaxtlar yaratdıqları konsentrasiya (hərbi və ya ölüm düşərgəsi) düşərgələrində qeyri-insani şəraitdə saxlayır və müxtəlif şaxtalarda ağır işlərdə istismar edirlər.

Qeyri-ixtiyari olaraq sual meydana çıxır: beynəlxalq ictimaiyyət, beynəlxalq təşkilatlar, xüsusilə ATƏT-in Minsk qrupu nə vaxta qədər Azərbaycan Respublikasının ərazisinin 20 faizi işğal altında ola-ola, beş min azərbaycanlının hazırda girovluqda olduğunu, neçə-neçə şəhər və kəndin viran olduğunu, bir milyondan çox qaçqın və məcburi köçkünün olduğunu bilə-bilə təcavüzkar Ermənistan dövlətinə qarşı güzəşt olunmasına səsləyəcək.

İndiyə qədər qəbul edilmiş beynəlxalq konvensiyalar da Qaradağlı və Xocalı faciəsi kimi soyqırımı aktlarını qətiyyətlə pisləyir, onların qəbuledilməz olduğunu bəyan edir.

Azərbaycan xalqı 1948-ci il 9 dekabr tarixli "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya"nı rəhbər tutaraq, Ermənistan Respublikasına qarşı BMT-nin Beynəlxalq Ədalət Məhkəməsində iddia qaldırmaq üçün bütün hüquqi əsaslara malikdir.

Dünya bilməlidir ki, bu cinayət təkcə Azərbaycan xalqına qarşı deyil, bütün bəşəriyyətə qarşı törədilib. Ermənistanda müxtəlif dövrlərdə yüksək vəzifələr tutan Seyran Ohanyan, hazırkı prezident Serj Sarkisyan, həmçinin Robert Köçəryan və başqaları həmin soyqırımının təqsirkarları kimi beynəlxalq məhkəmə qarşısında cavab verməlidir.

"Cinayət cəzasız qalmamalıdır. Ermənistanın hərbi-siyasi təcavüzü beynəlxalq ictimaiyyət tərəfindən qınanmalı, beynəlxalq təşkilatlar, dünya ölkələrinin parlamentləri Ermənistanın Azərbaycan torpaqlarında törətdiyi Qaradağlı və Xocalı soyqırımlarına beynəlxalq səviyyədə hüquqi-siyasi qiymət verməlidir və "əsl soyqırımı" kimi qiymətləndirməlidir", - deyə müəllif fikirlərini tamamlayıb.

# Yeni Azərbaycan Partiyasının imzatoplama kampaniyası uğurla davam edir

## BİNƏQƏDİ

11 aprel 2018-ci ildə ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar yaradılan Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsi hazırlıq işlərinə start verərək, fəaliyyətini uğurla davam etdirir. Belə ki, seçki prosesinin yüksək səviyyədə və mütəşəkkil keçirilməsini təmin etmək məqsədilə YAP Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsinin 21 nəfərdən ibarət Seçki Qərargahı yaradılıb.





Fevralın 16-dan etibarən isə Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi İlham Heydər oğlu Əliyevin seçkilərdə namizədliyinin müdafiəsi üçün imzatoplama kampaniyasına başlanılıb. YAP Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsi tərəfindən başlanan imzatoplama kampaniyası uğurla həyata keçirilir. Kampaniyada iştirak edən YAP fəalları və seçicilər yüksək fəallıq nümayiş etdirirlər. İmzatoplama zamanı Cənab İlham Əliyevin namizədliyini müdafiə edən 91 yaşlı seçici Misirxanova Zeynəb Mütəllib qızı seçkilərdə mütləq iştirak edəcəyini və Cənab Prezidentə səs verəcəyini bildirib.

Qeyd edək ki, imzatoplama kampaniyası zamanı Binəqədi rayonunda fəaliyyət göstərən 3 müstəqil - 8 saylı Binəqədi birinci, 9 saylı Binəqədi ikinci və 10 saylı Binəqədi üçüncü seçki dairələrinin ərazilərindən, ümumilikdə 1150 imzanın toplanılması nəzərdə tutulur.

## OĞUZ

11 aprel 2018-ci il tarixində keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Oğuz rayon şöbəsi Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin namizədliyinin müdafiəsi üçün imzatoplama



kampaniyasına başlanılıb.

Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Oğuz rayon şöbəsinin sədri Saleh Məhərrəmov imzatoplama kampaniyası ilə əlaqədar bildirib ki, seçicilərdən kütləvi şəkildə Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin müdafiəsi üçün imzalarını toplayarkən, dövlətimizin başçısının siyasətini dəstəklədiklərini və seçkilərdə Ona səs verəcəklərini də deyiblər.

Oğuz rayonu ərazisində 117 saylı Oğuz-Qəbələ DSK fəaliyyət göstərir. Ümumilikdə, rayon üzrə 350 imzanın toplanması nəzərdə tutulmuşdur. Bu işlə əlaqədar 7 nəfərdən ibarət imza toplayan qrup hazırlanmış və onlara treninqlər keçirilmişdir.

Qeyd edək ki, 117 saylı Oğuz-Qəbələ Seçki Dairəsi ərazisində (Oğuz rayonu üzrə) 26376 nəfərədək seçici qeydiyyatdadır.

Oğuz rayonunda imzatoplama prosesi 2 gün müddətində başa çatacaqdır. Seçici imzaları Oğuz şəhəri və rayonun bir neçə kəndlərində həyata keçiriləcəkdir.

## AĞCABƏDİ

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Ağcabədi rayon şöbəsi hazırlıq işlərinə başlayıb. Hazırlıq prosesi ilə bağlı keçirilən iclasda Yeni Azərbaycan





Partiyası Mərkəzi Seçki Qərargahının Ağcabədi rayon şöbəsinin sədri Rövşən Əhmədov cari ilin aprel ayının 11-də keçiriləcək prezident seçkilərinə hazırlıqla əlaqədar qarşıda duran vəzifələr barədə məlumat vermişdir. Sonra iclasda rayon şöbəsinin Seçki Qərargahının təyin etdiyi imza toplayanlara imza vərəqələri verilib və Prezidentliyə namizəd İlham Əliyevin müdafiəsi üçün seçici imzası toplanması haqqında təlimatla tanış edilib və imzatoplama prosesinin operativ qaydada başa çatması üçün lazımi tapşırıqlar verilib.

## QUBA

11 aprel 2018-ci ildə Azərbaycan Respublikasında keçi-



riləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Quba rayon şöbəsində seçki qərargahı yaradılıb və qərargahın Fəaliyyət Proqramı təsdiq edilib. Fəaliyyət Proqramına uyğun olaraq, 19 nəfərdən ibarət Seçki Qərargahı formalaşıb. Qərargahın texniki təchizatı yaxşılaşdırılıb və normal fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılıb. Qərargah üzvləri ilə treninqlər keçirilib. 11 aprel 2018-ci ildə prezident seçkilərinə hazırlıqla əlaqədar rayonda bütün seçki məntəqələri fəaliyyətə başlayıb, seçici siyahıları dəqiqləşdirilib, məntəqələrin texniki təchizatı təmin olunub. Rayonda fəaliyyət göstərən 52 saylı Quba, 53 saylı Quba-Qusar seçki dairələrini əhatə etməklə, 18 nəfərdən ibarət seçici imzası toplayacaq şəxslərin forma üzrə siyahısı hazırlanaraq, YAP İcra Katibliyinə göndərilib.

Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Quba rayon şöbəsində imzatoplama kampaniyasına uğurlu start verilib. 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının Azərbaycan Respublikası Prezidentliyinə namizədi Cənab İlham Heydər oğlu Əliyevin namizədliyinin müdafiəsi üçün seçici imzalarının toplanması uğurla davam edir.

Ümumillikdə, rayon üzrə 900 imzanın toplanması nəzərdə tutulmuşdur. Bu işlə əlaqədar 18 nəfərdən ibarət imza toplayan qrup hazırlanmış və onlara treninqlər keçirilmişdir. Quba rayonunda imzatoplama prosesi uğurla aparılır. Seçici imzalarının toplanması Quba rayonunu əhatə edən 52 saylı Quba və 53 saylı Quba-Qusar Seçki Dairəsi ərazisində həyata keçirilir.

## SABUNÇU

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Sabunçu rayon şöbəsi hazırlıq işlərinə start verərək, fəaliy-





yətini uğurla davam etdirir. Seçki prosesinin yüksək səviyyədə və mütəşəkkil keçirilməsini təmin etmək məqsədilə YAP Mərkəzi Seçki Qərargahının Sabunçu rayon şöbəsinin 17 nəfərdən ibarət seçki qərargahı yaradılıb. İmza toplayan şəxslərlə treninq keçirilib. Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı tərəfindən hazırlanmış təlimatla iclas iştirakçılarını tanış edib.

YAP Mərkəzi Seçki Qərargahının Sabunçu rayon şöbəsi tərəfindən fevralın 16-dan etibarən Yeni Azərbaycan Partiyasının Prezidentliyə namizədi İlham Heydər oğlu Əliyevin seçkilərdə namizədliyinin müdafiəsi üçün imzatoplama kampaniyasına başlanılıb. Rayon şöbəsi tərəfindən başlanan imzatoplama kampaniyası uğurla həyata keçirilib və fevralın 17-də imzatoplamaya yekun vurulub. Kampaniyada iştirak edən YAP fəalları və seçicilər yüksək fəallıq nümayiş etdiriblər. Qeyd edək ki, Sabunçu rayonunda 3 seçki dairəsi və 112 seçki məntəqəsi fəaliyyət göstərir.

*Ardı Səh. 7*

# Yeni Azərbaycan Partiyasının imzatoplama kampaniyası uğurla davam edir

Əvvəli Səh. 6

## XIZI

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin müdafiəsi üçün Xızı rayonunda imzatoplama





kampaniyası keçirilib. İmzatoplama kampaniyasından öncə, imza toplayacaq partiya fəalları üçün treninq keçirilib və imzatoplamanın qaydaları bir daha izah edilib, müvafiq təlimat və tapşırıqlar verilib. Daha sonra 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Xızı rayon şöbəsinin Seçki Qərargahının üzvləri arasında iş bölgüsü aparılıb və görülməsi nəzərdə tutulan digər məslələr bir daha müzakirə olunub.

Seçki Məcəlləsinə uyğun olaraq, bütün işlər təsdiq olunmuş fəaliyyət planı əsasında həyata keçirilir.

## BALAKƏN

Yeni Azərbaycan Partiyası tərəfindən Azərbaycan Respublikasının Prezidentliyinə namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin Azərbaycan Respublikası Prezidentliyinə namizədliyinin müdafiəsi üçün Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Balakən rayon şöbəsi im-





zatoplama kampaniyasına start verib. Seçki prosesi ilə əlaqədar olaraq, rayon şöbəsində seçki qərargahı yaradılıb və imzatoplama kampaniyası, eləcə də, digər məsələlərlə bağlı seçki qərargahının üzvlərindən ibarət iş bölgüsü aparılıb. Sonra imzatoplamanın qaydalarını izah edərək, müvafiq təlimat və tapşırıqlar verilib.

Qeyd edək ki, seçicilər mütəşəkkil qaydada imza toplayanlara müraciət edərək könüllü şəkildə öz imzalarını verirlər. Keçirilən imzatoplama kampaniyası 20.02.2018-ci ildə başa çatdırılacaqdır.

## DAŞKƏSƏN

Daşkəsən rayonunun Daşkəsən qəsəbəsində və Bayan, Quşçu, Kəmərqaya, Xoşbulaq, Qaraqullar, Qabaqtəpə kəndlərində 11 aprel 2018-ci il tarixdə keçiriləcək Prezident





seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Heydər oğlu Əliyevin imzatoplama kampaniyasına start verilib.

Rayon sakinləri böyük həvəslə və ruh yüksəkliyi ilə bu kampaniyaya Cənab İlham Heydər oğlu Əliyevin namizədliyinin dəstəklənməsi üçün qoşulublar.

Onlar öz namizədlərinə Azərbaycanımızın bügünkü və gələcək inkişafına inanaraq, öz imzalarını inamla verir öz dərin hörmət və ehtiramlarını bildiriblər.

## AĞSTAFA

Yeni Azərbaycan Partiyası tərəfindən Azərbaycan Respublikasının Prezidentliyinə namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin Azərbaycan Respublikası Prezidentliyi-





nin müdafiəsi üçün Ağstafa rayonunda imzatoplama kampaniyası keçirilib.

Rayon sakinləri imzatoplama kampaniyasına həvəslə gələrək, öz imzalarını atırlar. İmzatoplama kampaniyasına YAP Ağstafa rayon təşkilatının qərargahında start verilib. İmzatoplama kampaniyası Ağstafa rayonunun kənd və qəsəbələrində aparılmaqdadır.

## BİLƏSUVAR

11 aprel 2018-ci ildə keçiriləcək Azərbaycan Respublikası prezident seçkiləri ilə əlaqədar imzatoplama kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Biləsuvar rayon şöbəsində bir sıra tədbirlər həyata keçirilib. Belə ki, Yeni Azərbaycan Partiyasının





üzvü olan könüllülərdən ibarət qrup yaradılaraq onlarla müvafiq treninqlər keçirilib.

Qeyd edək ki, Biləsuvar rayonu üzrə 2 seçki dairəsi fəaliyyət göstərir. 66 saylı Biləsuvar Seçki Dairəsi üzrə seçicilərin sayı 48512, 69 saylı Cəlilabad-Masallı-Biləsuvar Seçki Dairəsi üzrə seçicilərin sayı 9049 nəfərdir. Həmin dairələrdən imzatoplama kampaniyasına uğurla başlanılıb. Rayonun Nəsimi və Ağayrı kəndlərində imzatoplama kampaniyası müvəffəqiyyətlə başa çatdırılıb.

Yeni Azərbaycan Partiyasının Sədri, Prezidentliyə namizəd Cənab İlham Əliyevin müdafiəsi üçün aparılan imzatoplama kampaniyası Biləsuvar rayon təşkilatı tərəfindən böyük ruh yüksəkliyi ilə başa çatdırılıb.

## GÖYÇAY



Yeni Azərbaycan Partiyası tərəfindən imzatoplama kampaniyası Göyçay rayonunda da uğurla davam edir. Partiyanın rayon təşkilatının qərargahından verilən xəbərə görə, rayon sakinləri imzatoplama kampaniyasına böyük coşqu hissləri ilə gələrək Yeni Azərbaycan Partiyasının Sədri, Prezidentliyə namizəd İlham Heydər oğlu Əliyevin müdafiəsi üçün öz imzalarını qeyd edirlər.

*Ardı Səh. 8*

# Yeni Azərbaycan Partiyasının imzatoplama kampaniyası uğurla davam edir

Əvvəli Səh. 7



İmzatoplama kampaniyası Göyçay rayonunun kənd və qəsəbələrində də uğurla aparılmaqdadır.

## SAMUX

Yeni Azərbaycan Partiyası Samux rayon təşkilatı 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının Azərbaycan Respublikası Prezidentliyinə namizədi Cənab İlham Heydər oğlu Əliyevin namizədliyinin müdafiəsi məqsədilə seçici imzalarının toplanması prosesinə başlayıb.





Fevralın 17-də YAP Samux rayon təşkilatının seçki qərargahının 12 nəfər imzatoplayan fəalı 102 saylı Samux-Şəmkir Seçki Dairəsi üzrə yaşayan sakinlərin imzalarını toplamaq üçün işə başlayıb. İmza toplayan fəallar Seçki Məcəlləsinin və qanunvericiliyin tələblərinə uyğun olaraq, hər bir sakinlə fərdi qaydada görüşür, şəxsiyyət vəsiqəsi və ya onu əvəz edən sənəd əsasında məlumatları qeyd edir.

## TƏRTƏR

Yeni Azərbaycan Partiyası tərəfindən Azərbaycan Respublikasının Prezidentliyinə namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin Azərbaycan Respublikası Prezidentliyinə namizədliyinin müdafiəsi üçün Tərtər rayonunda imzatoplama kampaniyasına başlanılıb. Qeyd olunur ki, YAP Tərtər rayon təşkilatı seçici imzalarının toplanılmasına 12 nəfər gənc fəal YAP üzvlərini cəlb edib. Həmçinin, vurğulanır ki, imzatoplama kampaniyasının uğurla başa çatdırılmasını təmin edəcək bütün tədbirlər və hazırlıq işləri yüksək təşkilatçılıqla həyata keçirilir.





## ŞƏMKİR

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə bağlı Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin müdafiəsi üçün Şəmkir rayonunda imzatoplama kampaniyasına başlanılıb.





Kampaniyadan öncə imzatoplayan fəallara treninq keçirilib. İmzatoplamanın qaydaları bir daha izah edilib, müvafiq təlimat və tapşırıqlar verilib.

Fevralın 17-də isə Yeni Azərbaycan Partiyasının Şəmkir rayon təşkilatının fəalları rayonda yerləşən 98 saylı Şəmkir şəhər, 99 saylı Şəmkir kənd və 100 saylı Şəmkir-Daşkəsən seçki dairələri üzrə tələb olunan sayda imza toplayıblar.

Yüksək aktivlik şəraitində baş tutan prosesdə Yeni Azərbaycan Partiyasının Şəmkir rayon təşkilatının 23-dən artıq fəalı iştirak edib. Hər bir fəal 1 imza vərəqəsini doldurmaq üçün dairə hüdudları üzrə sakinlərlə görüşüb, eyni zamanda, rayon təşkilatının qərargahında da imza yığıblar.

Yeni Azərbaycan Partiyasının Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev imzatoplama kampaniyası ilə əlaqədar bildirib ki, seçicilər kütləvi şəkildə imzatoplama kampaniyasında iştirak ediblər.

Partiya fəalları tələb olunan sayda imzaların toplanması üçün səylər göstərir, ölkə əhalisinin seçkilərə böyük ruh yüksəkliyi ilə qatılmalarından, imzatoplamada fəal iştiraklarından məmnunluq hissi keçirdiklərini bildirirlər.

## YEVLAX

YAP Yevlax rayon təşkilatı 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının Azərbaycan Respublikası Prezidentliyinə namizədi Cənab İlham Heydər oğlu Əliyevin namizədliyinin müdafiəsi məqsədilə seçici imzalarının toplanması prosesini uğurla reallaşdırıb.





Məlumata görə, fevralın 17-də YAP Yevlax rayon təşkilatının seçki qərargahının 40 nəfərdən çox imzatoplayan fəalı Yevlax rayonu 48 saylı Yevlax, 49 saylı Yevlax-Mingəçevir Seçki Dairələri üzrə yaşayan sakinlərin imzalarını toplamaq üçün işə başlayıb. İmza toplayan fəallar Seçki Məcəlləsinin və qanunvericiliyin tələblərinə uyğun formalaşıb. Onlar hər bir seçici ilə fərdi qaydada görüşür, söhbət aparır şəxsiyyət vəsiqəsi və ya onu əvəz edən sənəd əsasında məlumatları qeyd edərək, vətəndaşın imzasını alırlar. Tam demokratik və fəallıq şəraitində keçirilən kampaniyada vətəndaşlar könüllü şəkildə imza verərək Yeni Azərbaycan Partiyasının namizədi İlham Heydər oglu Əliyevi dəstəklədiklərini bildiriblər. YAP Yevlax rayon təşkilatı sıralarında 8713 nəfər partiya fəalı birləşir. Ərazidə iki dairə, 57 məntəqə, 57600 nəfərdən cox seçici mövcuddur. İki dairə üzrə cəmi 1150 imza toplanacaq.

## SUMQAYIT



# Yeni Azərbaycan Partiyasının imzatoplama kampaniyası uğurla davam edir



YAP Sumqayıt şəhər təşkilatı 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının Azərbaycan Respublikası Prezidentliyinə namizədi Cənab İlham Heydər oğlu Əliyevin namizədliyinin müdafiəsi məqsədilə seçici imzalarının toplanması prosesinə başlayıb.

Fevralın 17-də YAP Sumqayıt şəhər təşkilatının seçki qərargahının 33 imza toplayan fəalı Sumqayıt şəhəri 41 saylı birinci seçki dairəsi, 42 saylı ikinci seçki dairəsi, 43 saylı üçüncü seçki dairəsi və 44 saylı Sumqayıt-Xızı seçki dairələri üzrə yaşayan sakinlərin imzalarını toplamaq üçün işə başlayıb.

## LAÇIN

17 fevral 2018-ci il tarixdə Laçın rayon sakinlərinin müvəqqəti məskunlaşdığı Ağcabədi rayonunun Taxta Körpü qəsəbəsində Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Laçın rayon şöbəsinin imzatoplama kampaniyası ilə bağlı iclas keçirilib. İclasda Yeni Azərbaycan Partiyası





Laçın rayon təşkilatının sədri İlqar İlyasov bildirib ki, seçki qərargahı növbəti mərhələyə start verib.

Bu günə qədər partiyanın İcra Katibliyi tərəfindən verilən tövsiyə və tapşırıqlara uyğun olaraq, müvafiq mərhələlər üzrə nəzərdə tutulan işlərin uğurla həyata keçirildiyini söyləyən İ.İlyasov bildirib ki, Yeni Azərbaycan Partiyası tərəfindən Azərbaycan Respublikasının Prezidentliyinə namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin müdafiəsi üçün imzatoplama kampaniyasına cəlb olunmuş partiya fəalları bu mərhələni də uğurla başa vuracaqlar. İmzatoplama kampaniyası rayon sakinlərinin daha sıx məskunlaşdığı respublikamızın digər bölgələrini də əhatə edir.

## GORANBOY

11 aprel 2018-ci il tarixdə Azərbaycan Respublikasında keçiriləcək prezident seçkiləri ilə əlaqədar olaraq Yeni Azərbaycan Partiyası tərəfindən Prezidentliyə namizədliyi irəli





sürülən Cənab İlham Əliyevə imzatoplama kampaniyası Goranboy rayonunda da uğurla davam etdirilir. Partiyanın fəalları müvafiq tədbirlər çərçivəsində imzatoplama kampaniyasını kənd və qəsəbələrdə aparmaqdadırlar. Rayon sakinləri də qeyd edirlər ki, onlar seçki günündə fəal iştirak edərək, Yeni Azərbaycan Partiyasının namizədinə səs verməklə, ölkəmizin daha uğurlu inkişafına dəstək göstərəcəklər.

## UCAR

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin müdafiəsi üçün 16 fevral 2018-ci il tarixində imza vərəqələri götürülüb və günün ikinci yarısı Ucar rayo-



nunda imzatoplama kampaniyasına başlanılıb. İmzatoplama kampaniyasına başlanılmamışdan əvvəl imza toplayacaq fəallara treninqlər keçirilib. Prezident seçkilərində Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Ucar rayon şöbəsinin sədri, YAP Ucar rayon təşkilatının sədri Şəhla Abdullayeva imzatoplama kampaniyasının müvəffəqiyyətlə başa çatdırılması üçün YAP üzvlərinin səfərbər olduqlarını bildirib.

18 fevral 2018-ci il tarixində 91 saylı Ucar seçki dairəsi üz-



rə Yeni Azərbaycan Partiyası Ucar rayon təşkilatında Prezidentliyə namizəd İlham Heydər oğlu Əliyevin imzatoplama kampaniyası başa çatdırılıb. YAP Ucar rayon təşkilatının sədri Şəhla Abdullayeva qarşıda duran vəzifələr haqqında məlumat verib və Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev Cənablarının seçkidə alternativi olmayan lider olduğunu vurğulayıb.

## CƏLİLABAD

11 aprel 2018-ci ildə keçiriləcək Azərbaycan Respublikasının prezident seçkiləri ilə bağlı Yeni Azərbaycan Partiyası tərəfindən Prezidentliyə namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin namizədliyinin müdafiəsi üçün Cəlilabad rayonunda da imzatoplama kampaniyası uğurla davam etdirilir.

YAP Cəlilabad rayon təşkilatında bu məqsədlə, əvvəlcədən nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq, imzatoplama kampaniyasında iştirak edəcək partiya fəallarının





tərkibi müəyyənləşdirilib, onlarla treninqlər keçirilib, qarşıda duran vəzifələr onlara izah olunub, imzatoplama qaydaları haqqında ətraflı məlumat, tövsiyə və təlimatlar verilib.

*Ardı Səh. 10*

# Yeni Azərbaycan Partiyasının imzatoplama kampaniyası uğurla davam edir

Əvvəli Səh. 9

Cəlilabad rayonu üzrə fəaliyyət göstərən 3 seçki dairəsinin əhatə etdiyi yaşayış məntəqələrində keçirilən imzatoplama kampaniyasında vətəndaşlar yüksək fəallıq nümayiş etdirirlər. Bundan əvvəlki referendum və seçkilərdə mütəşəkkillik və siyasi fəallıq nümayiş etdirən cəlilabadlılar 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərində də fəal iştirak etmək və Cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi üçün səs vermək əzmindədirlər.

## İMİŞLİ

Yeni Azərbaycan Partiyası İmişli rayon təşkilatının fəallarının partiyanın namizədi, Prezident İlham Əliyevin na-





mizədliyinin qeydə alınması və müdafiəsi üçün keçirilən imzatoplama kampaniyası zamanı seçicilərin ruh yüksəkliyi və fəallığı bir daha təsdiq edilib. Qəzetimizə daxil olan məlumata görə, artıq bu istiqamətdə uğurlu işlər aparılıb və seçki dairəsində 79 saylı İmişli və 80 saylı İmişli-Beyləqan seçki dairələri üzrə qanunla nəzərdə tutulmuş ərazilərdə imzatoplama kampaniyası reallaşdırılıb. 14 nəfər partiya fəalı olan imza toplayanlar bildiriblər ki, 700 nəfər rayon sakinləri könüllü surətdə öz imzalarını YAP-ın namizədi İlham Heydər oğlu Əliyevin xeyrinə veriblər. Proses zamanı qanunvericiliyin bütün tələbləri gözlənilməklə, imzatoplama kampaniyası uğurla davam etdirilir.

## SURAXANI

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin müdafiəsi üçün Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Suraxanı rayon şöbəsi tərəfindən keçirilən imzatoplama kampaniyası uğurla başa çatıb.



Ümumilikdə, Suraxanı rayonu üzrə 1200 imza toplanmış və



siyahılar Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahına təhvil verilmişdir. 30 saylı Suraxanı birinci seçki dairəsi 350 imza, 31 saylı Suraxanı ikinci seçki dairəsi 450 imza, 32 saylı Suraxanı üçüncü seçki dairəsi 400 imza toplayıb.

YAP Mərkəzi Seçki Qərargahının Suraxanı rayon şöbəsində seçkilərdə ilk dəfə səs verəcək gənclərin siyahısı müəyyənləşdirilib. Seçki qərargahının üzvləri arasında vəzifə bölgüləri aparılıb və növbətçilik qrafiki təsdiq olunub.

Rayon şöbəsinin seçki qərargahının üzvləri tərəfindən seçiciləri maraqlandıran məsələlərə aydınlıq gətirilib və verilən suallar cavablandırılıb. YAP Mərkəzi Seçki Qərargahının Suraxanı rayon şöbəsinin bazasında seçici siyahıları dəqiqləşdirilir.

## İSMAYILLI

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının İsmayıllı rayon şöbəsi prezident seçkiləri ilə əlaqədar hazırlıq işlərinə start verib. Seçki prosesi ilə əlaqədar olaraq YAP



Mərkəzi Seçki Qərargahının İsmayıllı şəhər şöbəsində 17 nəfər tərkibdə seçki qərargahı yaradılıb. Fevralın 16-dan etibarən, Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi İlham Heydər oğlu Əliyevin seçkilərdə namizədliyinin qeydə alınması üçün imzatoplama kampaniyasına uğurla başlanılmışdır.

YAP İsmayıllı rayon şöbəsinin sədri Sevil Əhmədova bildirib ki, öncə, imzatoplayan fəallara treninq keçirilib, imzatoplamanın qaydaları bir daha izah edilib, müvafiq təlimat və tapşırıqlar verilib. Yüksək aktivlik şəraitində baş tutan prosesdə Yeni Azərbaycan Partiyasının seçki qərargahının İsmayıllı rayon şöbəsinin 14 nəfər fəalı iştirak edib. Hər bir fəal 1 imza vərəqəsini doldurmaq üçün rayonun müxtəlif kəndlərində və eyni zamanda, rayon təşkilatının qərargahında imza yığıblar.

Dünən YAP Mərkəzi Seçki Qərargahının İsmayıllı rayon şöbəsində imzatoplama kampaniyası uğurla başa çatmışdır.

## ZAQATALA

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə bağlı Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin müdafiəsi üçün YAP Seçki Qərargahının Zaqatala rayon şöbəsində imzatoplama kampaniyası başa çatıb. Kampaniyadan əvvəl imza toplayan fəallara treninq keçirilib, müvafiq təlimat və tapşırıqlar verilib. Toplantıda imzatoplama kampaniyası ilə bağlı görüləcək işlər, seçicilərlə aparılacaq ümumi və fərdi söhbətlər, müzakirələr olunub və iş bölgüsü aparılıb.

Yeni Azərbaycan Partiyasının Sədri, Prezidentliyə namizəd Cənab İlham Əliyevin müdafiəsi üçün aparılan imzatoplama kampaniyası Zaqatala rayon şöbəsi tərəfindən böyük



ruh yüksəkliyi, fəallıqla və uğurla başa çatıb.

## QƏBƏLƏ

Respublikamızın hər yerində olduğu kimi, Qəbələ rayonunda da 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərinə hazırlıq işləri yüksək səviyyədə aparılır. YAP Qəbələ rayon təşkilatında partiyanın Mərkəzi Seçki Qərargahının Qəbələ rayon şöbəsi yaradılmış,15 nəfər partiya fəalından ibarət qərargah üzvləri seçilmişdir. İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikası Prezidentliyinə namizədliyinin mü-



dafiəsi üçün imzatoplama kampaniyasına başlanmışdır. İmzatoplama kampaniyasndan öncə, imza toplayacaq partiya fəalları üçün treninqlər keçirilmişdir. 19 fevral tarixindən etibarən Qəbələ rayonu üzrə 116 saylı Qəbələ seçki dairəsinin 54 məntəqəsinin ərazisində 700 nəfər seçicidən imza toplamaq üçün 14 nəfər YAP üzvü imzatoplama kampaniyasına cəlb olunub. İmzatoplama kampaniyası uğurla davam etdirilir.

## QUSAR

Yeni Azərbaycan Partiyası Seçki Qərargahının Qusar rayon şöbəsi 11 aprel 2018-ci il tarixində keçiriləcək prezident seçkiləri ilə əlaqədar olaraq hazırlıq tədbirlərini davam etdirir. Qusar rayon şöbəsinin keçirilən iclasında 17 nəfərdən ibarət seçki qərargahı yaradılıb.

Seçkilərdə Qusar rayonu üzrə 51 saylı Qusar seçki dairəsindən 62 məntəqədə 45300 nəfər, 53 saylı Quba-Qusar



seçki dairəsində 15 məntəqədə isə 7396 nəfər səs verəcəkdir. Rayonda Yeni Azərbaycan Partiyasının Prezidentliyə namizədi İlham Heydər oğlu Əliyevin seçkilərdə namizədliyinin müdafiəsi üçün imzatoplama kampaniyasına başlanılıb. Kampaniyadan əvvəl imza toplayan fəallara treninq keçirilib, müvafiq təlimat və tapşırıqlar verilib. İmzatoplama kampaniyası mütəşəkkil və yüksək fəallıqla təşkil olunub. Seçici imzalarını toplamaq üçün rayon şöbəsindən 12 nəfər fəal ayrılmışdır və rayon üzrə 600 seçici imzası toplamaq nəzərdə tutulub. Seçkilərə hazırlıq prosesi fəaliyyət proqramına uyğun olaraq davam etdirilir.

***NƏZAKƏT, ZÜMRÜD, RÖŞƏN***

# Qəbul olunan qərarlar əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsinə xidmət edir

## *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəblinin yap.org.az-a müsahibəsi*

***- Hadi müəllim, dünyada baş verən mürəkkəb proseslər nəticəsində bir çox ölkələr maliyyə-iqtisadi böhranla üzləşiblər. Təbii ki, bu proseslər regionumuza da təsirsiz ötüşməyib. Bütün bunların fonunda Azərbaycanın sosial-iqtisadi cəhətdən inkişafını şərtləndirən əsas amillər nədən ibarətdir?***

- Ümumiyyətlə, qlobal böhran beynəlxalq aləmdə, bütün ölkələrin sosial-iqtisadi durumunda özünü bir sıra mənfi tendensiyalarla büruzə verir. Amma Azərbaycanda həyata keçirilən düşünülmüş, mütərəqqi siyasət nəticəsində bu böhranın ölkəmizə təsiri cüzi olub. Reallaşdırılan islahatlar nəticəsində son bir neçə ildə sosial-iqtisadi inkişaf proseslərində mühüm nəticələr əldə edilib. Başlıca məqsəd Azərbaycan vətəndaşının sosial müdafiəsinin gücləndirilməsi, əmək tutumlu iş yerlərinin yaradılması, bank-kredit, maliyyə-investisiya sisteminin təkmilləşdirilməsi, hüquqi bazanın bugünkü reallıqlara uyğunlaşdırılması və digərləridir.

Mütərəqqi sosial siyasət həyata keçirən Azərbaycanda vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə xüsusi diqqət yetirilir. Vətəndaşlara qayğı, onun maddi, mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin yaradılması Azərbaycan dövlətinin apardığı siyasətin mühüm prinsiplərindəndir. Sosial məsələlərin həlli, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi hər zaman diqqət mərkəzindədir. Eyni zamanda, insanların yaşayış səviyyəsinin yaxşılaşdırılması, maaşların, pensiyaların artırılması, yeni sosial obyektlərin tikintisi dövlətimizin sosial siyasətinin prioritet istiqamətlərindəndir. Hesab edirəm ki, iqtisadi inkişafın yeni mərhələsi nəticəsində əldə olunan nəticələr dövlətin sosialyönümlü siyasətinin daha da gücləndirilməsinə imkan verəcək.

***- Bütövlükdə, Azərbaycanda həyata keçirilən sosial siyasətin səciyyəvi xüsusiyyətlərini necə izah edərdiniz?***

- Əhalinin yüksək rifahının təmin olunmasına yönəldilmiş konkret tədbirlər sistemi olan sosial siyasət mürəkkəb struktura malik olmaqla çoxcəhətli prosesdir. Bu siyasətin hər hansı bir göstəricisini əsas götürərək bütövlükdə cəmiyyətin inkişafı barədə fikir yürütmək olar. Hər bir cəmiyyət öz inkişafına uyğun olaraq sosial siyasəti formalaşdırır və bu siyasətin həyata keçirilməsi üçün zəruri şəraitin yaradılmasını təmin edir. Baş verən ictimai, iqtisadi və digər inkişaf reallıqları sosial siyasətin məzmununun, mahiyyətinin zənginləşməsində böyük əhəmiyyət kəsb edir.

Sosial siyasətin qarşısına qoyulmuş məqsədlərə nail olmaq üçün onun həyata keçirilməsi mexanizminin böyük əhəmiyyəti var. Bu mexanizmin əsas elementi iqtisadiyyatı inkişaf etdirməkdir. Çünki iqtisadiyyatda uğur qazanmadan, yüksək maliyyə imkanlarına nail olmadan sosial siyasəti lazımi səviyyədə inkişaf etdirmək mümkün deyil. Azərbaycanda Ulu öndər Heydər Əliyevin müəllifi olduğu sosial siyasət cəmiyyətin hər bir fərdini əhatə edir. Bu gün aztəminatlı ailələrə, müharibə veteranlarına və əlillərinə mənzillərin və avtomobillərin verilməsi, əlillərin reabilitasiyası, ailə, qadın və uşaq problemlərinə yüksək diqqət, əhalinin məşğulluğunun təmin edilməsi, uğurlu gənclər siyasəti, cəmiyyətin hər bir stratının mənafeyinin nəzərə alınması Ulu öndər Heydər Əliyevin hakimiyyətə dönüşündən sonra dövlətin iqtisadi imkanlarına uyğun olaraq vüsət almağa başladı. O cümlədən,



yoxsulluğun aradan qaldırılması üçün mühüm işlər görüldü. ünvanlı sosial yardım mexanizminin tətbiqi nəticəsində əhalinin adambaşına düşən orta aylıq gəlirləri davamlı olaraq artmaqdadır.

Artıq 12 ildir ki, əhalinin imkansız təbəqələrinə ünvanlı sosial yardımlar verilir. Bu da minlərlə ailənin sosial vəziyyətinin yaxşılaşmasına səbəb olub. Bilirsiniz ki, ünvanlı sosial yardımların verilməsi qaydaları təkmilləşdirilir və bu sahədə neqativ halların aradan qaldırılması üçün tədbirlər görülür. Bu məqsədlə yardımların verilməsində məmur-vətəndaş ünsiyyətinin minimuma endirmək üçün elektron sistem tətbiq olunur.

***- Fevralın 9-da Azərbaycan Prezidenti tərəfindən "Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında" Sərəncam imzalanıb. Bu Sərəncamın əhəmiyyəti haqqında fikirlərinizi bilmək istərdik...***

- Azərbaycan Prezidentinin bu Sərəncamı pensiyaçıların sosial müdafiəsinin daha da gücləndirilməsi istiqamətində növbəti addımdır. Hesab edirəm ki, Sərəncam bütövlükdə əhalinin rifah halının yaxşılaşdırılmasına yönələn tədbirlərin uğurlu davamıdır. Bilirsiniz ki, ölkəmizdə 2006-cı il yanvarın 1-dən beynəlxalq standartlara uyğun müasir sığorta-pensiya sisteminin tətbiqi ilə əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsinə başlanılıb. Sığorta-pensiya sistemində növbəti islahat tədbiri kimi, "Əmək pensiyaları haqqında" qanuna edilmiş və 2017-ci il iyulun 1-dən tətbiqinə başlanılan mütərəqqi dəyişikliklər bu sistemin tam sığorta prinsipləri üzərində formalaşmaqla uzunmüddətli və etibarlı maliyyə dayanıqlığına, bazar iqtisadiyyatı şəraitində sosial rifah tələblərinə uyğun layiqli pensiya təminatı imkanlarının artırılmasına xidmət edib. Bu dəyişikliklər həmçinin, uzun illər ölkəmizin pensiya qanunvericiliyində mövcud olmuş "əmək pensiyasının baza hissəsi" anlayışının aradan qalxmasına, pensiyaların baza və sığorta hissələrinin birləşdirilərək vahid məbləğ kimi müəyyən edilməsinə səbəb olub. Xatırladım ki, əvvəllər hər ilin əvvəlində əmək pensiyalarının yalnız sığorta hissəsi əvvəlki ilin rəsmi inflyasiya göstəricisi əsasında artırılırdı. Amma cari ildən isə əmək pensiyalarının ümumi məbləğinin ölkə üzrə orta aylıq əmək haqqının əvvəlki ildəki artım faizinə uyğun indeksləşdirilərək artırılması mexanizminə keçilir. Bu tədbir isə pensiyaçı vətəndaşların sosial maraqlarının daha tam şəkildə təmin olunmasına imkan verir.

2017-ci ildə ölkəmizdə orta aylıq nominal əmək haqqının illik artım tempi 5,7 faiz səviyyəsində müəyyən edilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən respublikamızda əmək pensiyalarının ümumi məbləğinin də 2018-ci il yanvarın 1-dən hesablanaraq həmin göstəriciyə uyğun, yəni 5,7 faiz artırılması təmin ediləcək. Artıq bu yöndə müvafiq tədbirlər həyata keçirilir.

Rəsmi məlumatlara əsasən 1 yanvar 2018-ci il vəziyyətinə görə, ölkədə 1 milyon 318 min 434 nəfər əmək pensiyası alır. Dövlət başçısının sözügedən Sərəncamına əsasən əmək pensiyalarının indeksləşdirilərək artırılması pensiyaçıların 1 milyon 236 min nəfərinə və ya 94 faizinə şamil olunacaq. Hesab edirəm ki, bu qərar ölkəmizdə uğurlu sosial siyasətin göstəricisidir və bu siyasət davamlı xarakter daşıyır.

***- Hadi müəllim, fevralın 13-də Milli Məclisin iclasında "Əlilliyi olan şəxslərin hüquqları haqqında" yeni qanun layihəsi birinci oxunuşda qəbul olundu. Belə bir qanunun hazırlanmasına zərurət nədir?***

- Bildiyimiz kimi, qüvvədə olan "Əlilliyin və uşaqların sağlamlıq imkanlarının məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu 25 il bundan öncə qəbul olunub. 2008-ci ildə Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının "Əlillərin hüquqları haqqında" Konvensiyasına və bu sənədin Fakültativ protokoluna müvafiq bəyanatla qoşulmaqla orada təsbit olunmuş prinsiplərə sədaqətli olduğunu nümayiş etdirib. Qüvvədə olan bu qanunun qəbul olunduğu dövrdən uzun müddət keçməsi ilə əlaqədar əlilliyi olan şəxslərin hüquqları sahəsində qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması zərurəti yaranıb. Zaman və mövcud reallıqlar yeni qanun layihəsinin hazırlanmasına ehtiyac olduğunu özü göstərdi və bunun üçün "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanun layihəsi BMT-nin, Avropa beynəlxalq təşkilatlarının, əlaqədar icra strukturlarının geniş əməkdaşlığı nəticəsində son dörd il ərzində hazırlandı.

Azərbaycanda fiziki qüsurlu insanların sayı bugünkü hesablamalara görə təxminən 620 min nəfər təşkil edir. Bu ölkə əhalisinin 6%-ə qədəridir. Nəzərə alsaq ki, bu faiz dünyada 10-12 civarında hesablanır və bizdə ölkə əhalisinin sayı son illər bir milyon yarıma qədər artsa belə bu qrup insanların sayı demək olar ki, dəyişməyib. Buradan belə bir məntiq ortaya çıxır ki, bizdə əlilliyin reabilitasiyası və qarşısının alınması istiqamətində daha ardıcıl və sistemli iş aparılır.

"Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanun layihəsi çox vacib bir sferaya, əlilliyi olan şəxslərin hüquq və azadlıqlarının tam və bərabər səviyyədə həyata keçirilməsini, onların şərəf və ləyaqətinin müdafiəsi sahəsində yaranan münasibətlərin fundamental prinsiplərini özündə ehtiva edən bir hüquqi sənəddir.

Bu qanunun əsas mahiyyəti əlilliyi olan şəxslərin hüquqlarının daha səmərəli həyata keçirilməsini, hüquq və azadlıqlarının etibarlı qorunmasını, dövlət orqanlarının BMT-nin "Əlillərin hüquqları haqqında" Konvensiyasına uyğun fəaliyyət göstərməsini təmin etmək, habelə onların sosial və digər təminatlarının tənzimlənməsindən ibarətdir. Fikrimcə, bu sənəd istər əlilliyi olan şəxslərin hüquqlarını, istərsə də müvafiq icra hakimiyyəti orqanlarının vəzifələrini müəyyən etməklə yanaşı onların qarşılıqlı münasibətlərini tənzimləyəcək və bu gün üçün mövcud olan boşluqları dolduracaq.

## "Libermana sui-qəsd cəhdində erməni izinin olması istisna deyil"



İsrailin müdafiə naziri Aviqdor Libermana sui-qəsd cəhdində erməni izinin olması istisna deyil. AZƏRTAC xəbər verir ki, bunu müdafiə nazirinin sabiq müavini, istefada olan general-leytenant Çingiz Məmmədov Aviqdor Libermana sui-qəsdə cəhd barədə yayılan məlumatları şərh edərkən bildirib.

Çingiz Məmmədov deyib ki, İsrail-Azərbaycan münasibətlərinin, xüsusilə də hərbi sahədə ikitərəfli əməkdaşlığın inkişafı erməni tərəfinin daim ciddi narahatlığı ilə qarşılanıb. Elə bu yaxınlarda Ermənistan parlamentinin nümayəndə heyətinin İsrailə səfəri zamanı məhz A.Libermanın Azərbaycanı açıq-aydın dəstəkləməsi barədə verdiyi bəyanatlar da erməni deputatları son dərəcə məyus edib. Onu da xüsusi qeyd etmək lazımdır ki, erməni nümayəndə heyətinin İsrailə nəticəsiz, iflasa uğramış səfərindən dərhal sonra sui-qəsdin baş verməsi onun hələ səfər öncəsi planlaşdırıldığını ehtimal etməyə əsas verir.

Ermənistanın kriminal rejimi beynəlxalq terror təşkilatları, o cümlədən anti-İsrail qüvvələri ilə sıx və qarşılıqlı əlaqədə sui-qəsdlər və terror aktlarından məqsədlərinə nail olmaq üçün daim istifadə edirlər. Bildiyimiz kimi, bu üsuldan istifadə hətta bir çox erməni təşkilatlarının nizamnamələrində də öz əksini tapıb. Dünyanın müxtəlif ölkələrində, məsələn Fransada, Rusiyada, Türkiyədə və bir çox digər yerlərdə törədilən terror aktlarında və sui-qəsdlərdə ermənilərin birbaşa iştirakı öz təsdiqini tapıb. Heç şübhəsiz ki, bu terror aktında da ermənilərin bilavasitə əli olması istisna deyil. Bu fikri təsdiq edən faktlardan biri də Ermənistanın israrlı cəhdlərinə baxmayaraq, İsrail parlamentinin qondarma "erməni soyqırımını" qəbul etməməsidir.

## "Naxtel" operatorunun istifadəçi sayı 20 min 700 nəfər artıb




Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin birgə müəssisəsi olan "Naxtel" Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyətinin ilk ilində apardığı məqsədyönlü tədbirlər və yüksəkkeyfiyyətli xidmət sayəsində 4-cü nəsil "Naxtel" operatorunun istifadəçi sayı il ərzində 20 min 700 nəfər artaraq 30 minə çatıb.

AZƏRTAC xəbər verir ki, bank ödəniş və qəbul terminallarında "Naxtel"in sim kartlarından kanal yaradıcı vasitə kimi istifadə olunması və hesabat sisteminin təkmilləşdirilməsi üçün muxtar respublikada müvafiq işlər görülüb, 120 POS-terminal və 10 bankomatda "Naxtel" sim kartlarından istifadə olunması təmin edilib. Bu gün digər operatorlardan fərqli olaraq muxtar respublikanın bütün yaşayış ərazilərini genişzolaqlı data xidmətləri ilə təmin edə bilən 4-cü nəsil "Naxtel" operatoru mobil bankçılıq və bank əməliyyatları sektorunda geniş texniki imkanlara malikdir. "Naxtel"in beynəlxalq rominq əlaqələrinin qurulması sahəsində də işlər davam etdirilir. Hazırda Gürcüstanda "Naxtel"in rominq xidməti işə salınıb, digər 10 ölkə üzrə test sınaq işləri həyata keçirilir.

# Müxalifətçilərin səfərlərinin arxasında məkrli niyyətlər durur

***Müxalifət düşərgəsi Yeni Azərbaycan Partiyasının, eyni zamanda, Prezident İlham Əliyevin seçkilərdə qələbəsini yaxşı başa düşür və bunu həzm edə bilmədiyi üçün çox narahatdır. Ölkə daxilində fəaliyyətinin səmərəsiz və mənasız olduğunu dəqiq yəqin edənlərin fəaliyyəti hər mənada, artıq sərhədləri aşır. İctimai dəstəkdən, xalqın səsindən məhrum olanlar xarici ölkələrə səfər etməklə əcnəbi havadarlarına sığınmağa və ölkəmizə qarşı məkrli niyyəti olan qüvvələrə xidmət etməyə çalışırlar.***

Təbii ki, müxalifət qurumlarının xarici ölkələrə üz tutmalarında onların maraqları da nəzərə alınır. Azərbaycanın uğurlarından narahat olan qüvvələr ölkə daxilində qarışıqlığın, təxribatın olmasında, nəticədə dövlətin zəifləməsində maraqlıdır və bunun üçün əlindən gələni etməyə çalışır, lazım gəldikdə, külli miqdarda vəsait xərcləməkdən də çəkinmirlər. Bu baxımdan, müxalifətçilər şəxsi mənafeləri, qazanmaq istədikləri vəsaitlərin, pulun müqabilində, satqınlıq bahasına da olsa, anti-Azərbaycan qüvvələrin marionetinə çevrilirlər.



Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev, "Ümid" Partiyasının sədri İqbal Ağazadə və Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlunun İrana səfərləri ictimaiyyətin diqqətini cəlb etməklə yanaşı, narahatlığına da səbəb olub. Ələlxüsus, seçki ərəfəsində partiya sədrlərinin qonşu ölkələrə üz tutmaları ictimai qınağa səbəb olmaya bilməz. Nəzərə alsaq ki, hər seçki dönəmində, son anda, ümidsizlik məqamında satqınlıqdan belə çəkinməyənlərin aqressiv davranışları xalqa bəllidir və bu mənada da, ictimai qınaq başadüşülləndir.

Maraqlıdır, sükunət halını seçmiş müxalifətçilər seçkinin vaxtı təyin olunan kimi, səfərlər etməyə başlayırlar. İlyas İsmayılov, Oqtay Gülüliyev, Eldəniz Quliyev Rusiyaya gedir, Cəmil Həsənli Avropaya üz tutur, bu üç partiya sədri də İrana səfər edir. Nə oldu bu müxalifətçilərə birdən-birə? Nədən tələsləndilar? Nə vaxtdan belə aktiv fəaliyyət sərgiləyən oldular? Bu vaxta qədər İranın az qala xəritədə belə yerini tanımayan bu üç partiya sədri seçkilərin vaxtı təyin olunan kimi İrana niyə üz tutası oldular? Çox acınacaqlı vəziyyətdə olan müxalifətçilərin belə bir durumda İranda tədbirə qatılmaq marağı ola bilməz və onların bu kimi bəhanələrinə inanmaq sadəlövhlük olar. Əminliklə söyləmək olar ki, bu səfərlərin arxasında, əlbəttə ki, məkrli niyyətlər durur. Səfərlərinin başqa bir xoş niyyət güddüyünü söyləmək olmaz. Əgər onların belə bir xoş məramları var idisə, o zaman bu səfərin seçki ərəfəsinə qədər bircə dəfə şahidi ola bilərdik.

Məsələn, "Milli Şura"nın yaranmasını xatırlasaq, görərik ki, bu qurum Rusiyanın, daha doğrusu, qonşu ölkədə Azərbaycan əleyhinə fəaliyyət göstərən məkrli, bədniyyətli qüvvələrin ideya müəllifliyi ilə yaradıldı. Təbii ki, yerli xəyanətkarlar, radikallar da bu prosesin, bilavasitə iştirakçıları və ssenaristlərin buyruq qulları kimi öz satqın mövqeləri ilə onlara xidmət etdilər. Lazım gəldikdə, onların pişvazına da getdilər, onları ölkəmizə dəvət də etdilər, hətta əmrlərini yerinə yetirmək üçün heç nədən də çəkinmədilər. Yəni yalnız öz maraqları naminə, milli maraqlara zidd olan əməkdaşlığın bütün hallarını məqbul hesab etdilər.

Öz 25 illik fəaliyyətləri dövründə nə İ.Ağazadə, nə Ə.Əliyev, nə də S.Cəlaloğlunun bir dəfə də olsun İrana getdiyinin şahidi olan olmayıb. Sözsüz ki, hər biri, öz növbəsində, bu səfəri hansısa bir tədbirlə əlaqələndirə bilər. Hətta bunun ictimai maraqlar çərçivəsində olduğunu da iddia edə bilərlər. Amma bəllidir ki, bu səfər və bu gediş yalnız prezident seçkiləri ilə bağlıdır və məqsəd qonşu ölkədə fəaliyyət föstərən, din pərdəsi altında pərdələnən məkrli qüvvələrlə əməkdaşlıqdan ibarətdir.

## Bir sözlə, hər iki tərəfin təxribat törətmək niyyəti göz qabağındadır

Maliyyə vəsaitləri, maliyyə mənbələrinin axtarışı da təkzib edilə bilməz. Nəinki təkzib edilə bilməz, hətta ötən il S.Cəlaloğlunun müsahibələrinin birində seçkilərin, seçkilərə qatılmağın maliyyəsiz mümkünsüzlüyünü dilə gətirməsi, maliyyə vəsaiti əldə edəcəkləri təqdirdə, seçkilərə qatılacaqlarını bildirməsi, əks halda, seçkilərdə yalnız seçici kimi iştirak edəcəklərini etiraf etməsi səfərin, həmçinin, maliyyə vəsaitləri əldə etmək məqsədi daşıdığını da təsdiq edir. Görünür, aprel ayından sonra digər problemlərlə yanaşı, maliyyə sıxıntısı keçirəcəklərindən də narahat olan Cəlaloğlu seçki ərəfəsində son qüvvəsini səfərbər edərək, son ümidlərini doğrultmağa çalışır. Hər iki tərəfin təxribatlar törətmək niyyəti göz qabağındadır.

Dini komuflyaj kimi istifadə edən İranın bəzi qruplaşmaları Azərbaycanda iğtişaşlar törətməkdən zərrə qədər çəkinməz. Hətta buna çox maraqlıdırlar. "Azadlıq" qəzetinin baş redaktoru Qənimət Zahidin bir vaxtlar İrana gedib qayıtdıqdan sonra "ETTELLAT" təşkilatı tərəfindən təyinatlandığını xatırlasaq, görərik ki, qonşu dövlətdə məkrli niyyəti ilə seçilən qüvvələrin Azərbaycanda çaxnaşma yaratmaqda maraqlı olması zərrə qədər şübhə doğura bilməz. Onların bu marağını Q.Zahid özü də televiziyalarda çıxışı ilə etiraf edirdi. İndi də, analoji olaraq, S.Cəlaloğlunun, Ə.Əliyevin, İ.Ağazadənin bu səfərindən sonra onların İranın əldəqayırma mollaları tərəfindən təxribatların törədilməsinə təhrik və cəlb olunmayacağına kim zəmanət verə bilər? İranın məkrli qüvvələrinin Nardaran hadisələrində rolu hər kəsə bəllidir və bu, dəfələrlə sübut olunub. Azərbaycanda təxribata həmin qüvvələrin maraqlı olduğu təkzib edilə bilməz. Onların radikallarla təmasda olmaları, əlaqələri, məhz ölkə daxilində iğtişaşlar yarada bilən tıxribatların hazırlanmasına hesablanıb. Bu baxımdan, hər üç müxalifətçinin, partiya sədrlərinin İran səfəri heç bir müsbət fikir, pozitiv yanaşmaya əsas verə bilməz. Bu səfərin seçki ərəfəsinə təsadüf etməsi, belə bir yanaşmaya əsas vermədiyi kimi, müxalifətçilərin seçki fəaliyyəti ilə ölkə daxilində məşğul olmaq əvəzinə, xaricə səfər etmələri də deyilənləri təsdiq edir. Yəni müxalifət düşərgəsində təmsil olunanların belə bir məqamda, seçki ərəfəsində xaricə getmələrinə nə vaxtları var, nə də belə bir səfərə lüzum yoxdur.

Əksinə, Azərbaycanda keçiriləcək seçkidə İranın hansısa dairələrinin deyil, ölkə vətəndaşının, ölkə ictimaiyyətinin iradəsi vacibdir. Bunun üçün ölkə daxilində içtimai dəstəyə ümid etmək və onu qazanmaq tələb olunur. Bu halda, İrana üz tutan partiya sədrləri, müxalifət nümayəndələri seçki zamanı milli maraqlara, xalqın mənafeyinə, dövlətçilik maraqlarına deyil, iştişaşlara meyilli və maraqlı olduqlarını bürüzə verir, öz mənafeləri, maraqları naminə hər bir xəyanətə imza atacaqlarını sübut edirlər. Belə düşüncə və məfkurə sahiblərinin ictimai dəstəyə zərrə qədər gümanı ola bilməz və bunu hamıdan yaxşı özləri başa düşürlər. Məhz bu səbəbdən, cabalayan müxalifətçilərin canfəşanlığı heç bir nəticə verməyəcək. Çünki qeyd etdiyimiz kimi, Azərbaycanda seçkilər ölkə vətəndaşlarının, bu xalqın iradəsindən asılıdır və bu baxımdan, ictimai dəstəyi olmayanların seçkilərdə uğur qazana bilməsi mümkünsüzdür.

***İnam HACIYEV***

## "YARAT" növbəti film festivalına ev sahibliyi edəcək




Fevralın 28-də "YARAT" Müasir İncəsənət Mərkəzində "Future Shorts" adlı qisametrajlı film festivalı keçiriləcək. AZƏRTAC xəbər verir ki, yeni qış mövsümü toplusunun nümayişi olan festival yaradıcı qruplar və fərdlər üçün meydan olan "YARAT Freestyle" proqramı çərçivəsində reallaşacaq. Festival çərçivəsində altı ekran əsərinin nümayişi nəzərdə tutulur. İştirakçılar filmləri rus dilində subtitrlərlə izləyəcəklər.

Mövcud olduğu 12 il ərzində festival Yaponiyadan tutmuş Braziliyaya qədər böyük ərazidə kino pərəstişkarlarının rəğbətini qazanıb. Festival bütün dünya boyu peşəkarlar və debütantlara beynəlxalq kinematoqrafiya birliyinin bir hissəsinə çevrilməyə şərait yaradır.

## "Ermənistanın İrana münasibətində dəyişikliklər baş verib"



"Ermənistanın İrana münasibətində kardinal dəyişikliklər baş verib. İranın Ermənistandakı səfiri Seyyid Kazim Səccadinin son bəyanatının təhlili belə nəticəyə gəlməyə tam əsas verir". Bunu SİA-ya açıqlamasında Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu deyib. Politoloqun sözlərinə görə, Səccadi İranla Ermənistan arasında iri layihələrin (Mehri SES-in və dəmir yolunun) reallaşmamasının məsuliyyətini Ermənistanın üzərinə qoydu: "Ermənistanın AİB-ə üzvlüyünün heç bir fayda vermədiyini bildirdi. Bununla da son illərdə rəsmi Yerevanın əsas "kozırını" əlindən aldı; Ermənilər AİB-lə İran arasında körpü rolu oynamağa çox iddialı idilər və bunu ciddi səylə təbliğ edirdilər. Mehri AİZ-i də bu məqsədlə yaratmışdılar. Yeri gəlmişkən qeyd edək ki, Mehri AİZ-in açılışında İran tərəfi iştirak etmədi. İndi səfirin bəyanatı dekabrın sonlarında Mehri AİZ-in açılışı ətrafında baş verənlərə aydınlıq gətirdi. Səfiri belə mövqe ortalığa qoymağa vadar edən səbəblər sensasiyalıdır:

I. Ermənistan prezidenti S.Sərkisyan İran İslam İnqilabının 39-cu ildönümü münasibətilə İrana təbrik məktubu göndərmədi. Bu vaxtadək Ermənistan prezidentləri hər il İranın prezidentinə və Ali rəhbərinə iki təbrik məktubu ünvanlayırdılar.

II. Rəsmi Yerevanın İran İslam İnqilabının 39-cü ildönümünün Ermənistanda qeyd edilməsinə icazə verilmədi.

III. Yerevan Dövlət Universitetində ikinci İranistika kafedrasının əvəzinə iranşünaslıq auditoriyası yaradıldı.

Göründüyü kimi Ermənistanın İrana göstərdiyi bu münasibət çox təhqirlidir və bunun müqabilində İran səfirinin mövqeyi öz dövlətinin mənafelərini lazımınca qoruya bilməmək kimi təfsir edilməlidir. Hər halda səfir üçün belə vəziyyət gözlənilməz olmamalı idi. Çünki bu hadisələrdən bir az öncə yüksək çinli ABŞ rəsmisi B.Brink Ermənistanda səfərdə olub, İran məsələsini müzakirə etmişdi. Ondan bir az əvvəl rəsmi Yerevan İranın qrantları hesabına tikilmiş Mehri və Aqarak şəhərlərinin qaz paylama şəbəkəsini RF-ə verdi. Bundan da bir az qabaq prezident S.Sərkisyan İranı daxili sabitliyi olmayan ölkə kimi xarakterizə etmişdi. Məhz İranın daxilindəki xaos və qeyri-sabitliyin Ermənistanın İranla əlaqələrinin inkişafına maneçilik törətdiyini bildirmişdi.

Biz İranın Dağlıq Qarabağ tənzimlənməsindəki gücü və potensialına və eləcə də uzun müddətli mövqeyinə bələdik. İranın Dağlıq Qarabağ tənzimlənməsində həlledici rolu arzuolunmazdır. Çünki Qarabağ torpağı müqəddəs torpaqdır. Bu fikri əlavə inkişaf etdirmək niyyətində deyiləm. Amma İran rəsmilərinə və din xadimlərinə bir yadasaldı etmək niyyətindəyik. Ermənistan suveren dövlət deyil. Qərar qəbul etməsində gah Rusiyanın, gah da ABŞ-ın mövqeyini nəzərə alır. Hər iki dövlətin Ermənistan üzərində təsirinin artmasının ən əsas səbəbi hər iki dövlətin Dağlıq Qarabağ tənzimlənməsindəki mövqelərini dəyişmələridir. Rusiya və ABŞ Dağlıq Qarabağ tənzimlənməsində ermənipərəst mövqedən xeyli uzaqlaşıblar. Səfir özü də etiraf edir ki, İranın Dağlıq Qarabağ tənzimlənməsindəki mövqeyi bu münaqişə yarandığı andan ermənilərin tərəfindədir. Bəlkə İran Dağlıq Qarabağ tənzimlənməsində mövqeyini dəyişməyi sınaqdan keçirsin?!".

## Vikipediyaya Azərbaycan mədəniyyəti haqqında özbək dilində məqalə yerləşdirilib

"Wikipedia.org" Beynəlxalq Elektron Ensiklopediyada Azərbaycan mədəniyyəti haqqında özbək dilində xüsusi bölmə istifadəyə verilib. AZƏRTAC xəbər verir ki, bölmədə Azərbaycan mədəniyyəti, ölkənin adı, toponimləri, bu ərazisində mövcud olmuş dövlətlər və s. haqqında məlumat verilir. Məqalədə dinlər, memarlıq, təsviri sənət, xalçaçılıq, rəssamlıq, heykəltəraşlıq, dil və ədəbiyyat, əlifba, turizm, milli mədəni irsimiz, Azərbaycan folkloru, balet, teatr, kino, adət və ənənələr, ailə, müasir dövr, milli mədəniyyətin inkişafı istiqamətində həyata keçirilən layihələr və s. haqqında geniş məlumatlar öz əksini tapıb. Bölməyə bu mövzulara bağlı çoxlu fotoşəkillər də daxil edilib. Qeyd edək ki, layihə Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin informasiya təminatı ilə həyata keçirilir.

# Azər Badamov: "Ayrı kompromislər Ermənistanı məhvə aparacaq"



Müsahibimiz millət vəkili Azər Badamovdur

*- Azər müəllim, Ermənistan prezidenti Sarkisyan Avropa İttifaqında çıxışı zamanı Dağlıq Qarabağ münaqişəsinin həlli üçün kompromis variantlar axtardıqlarını bəyan edib. Sizcə, BMT-nin qətnamələri ortada olduğu halda, Sarkisyan hansı kompromislərdən danışır?*

- Ölkə başçısı Cənab İlham Əliyev dəfələrlə qeyd etmişdir ki, Azərbaycan torpağı müzakirə mövzusu ola bilməz və işğalçıları torpaqlarımızdan qovmaqla biz ərazi bütövlüyümüzü təmin edəcəyik. Belə olan halda, Azərbaycan ərazisi kompromisə getmək üçün predmet deyil. Ola bilsin, Ermənistan prezidenti Sarkisyanın Avropa İttifaqında çıxışı zamanı Dağlıq Qarabağ münaqişəsi üçün səsləndirdiyi kompromis variantı erməni ordusunun Azərbaycan torpaqlarından çıxarılması üçün müəyyən müzakirələrlə bağlı olsun. Hər nə olursa- olsun, bütün kompromislər BMT və beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi şərti ilə olmalıdır. Əgər Sarkisyan ayrı bir kompromis variant düşünürsə, çox səhv etmiş olur və ayrı kompromislər Ermənistanı məhvə aparacaq.

*- Ermənistan cəmiyyətində Sarkisyana qarşı nifrət və mənfi münasibət mövcuddur. Demək olarmı ki, Sarkisyan seçkilərdə uğursuzluğa düçar olacaq və bu halda, Dağlıq Qarabağ münaqişəsinin həllində hansı vəziyyət yarana bilər?*

- Hər şey ola bilər. Bu gün Ermənistanın siyasi-iqtisadi mənzərəsi ölkənin gələcəyinin yaxşılaşacağına heç bir müsbət proqnoz vermir. Ermənistanda dövlətdən narazılıqlar kütləvi hal alır. Sarkisyanın mövqeləri zəiflənməkdə davam edir. Ola bilsin ki, seçkilərdən sonra hakimiyyətdə dəyişiklik olsun və Ermənistana ölkənin gələcəyini düşünən ayrı bir rəhbər gəlsin. Bu gün erməni politoloqlarının açıqlamalarında da bunu aydın görmək olur. Əgər Ermənistanda siyasi hakimiyyət dəyişilərsə, Dağlıq Qarabağ münaqişəsinin həllində də bir yenilik yarana bilər. Amma dəqiq proqnoz vermək mümkün deyil və hər şeyi zaman göstərəcək.

*- Son günlər cəbhədə erməni separatçılarının atəşkəsi tez-tez pozması halları baş verir. Bunu Sarkisyanın daxili gərginliyi birbaşa cəbhəyə yönəltmək kimi anormal bir münasibətindən qaynaqlandığını demək olarmı?*

- Düzgün qeyd edirsiniz ki, son zamanlar erməni separatçıları atəşkəs rejimini mütəmadi pozurlar. Bunun da kökündə iki səbəb görürəm. Birincisi odur ki, Ermənistanda yaranmış narazılıqlar dalğası genişlənməkdədir. Sarkisyan istəyir ki, cəbhədə müharibə şəraiti yaratmaqla, xalqın diqqətini ora yönəltsin. O, göstərmək istəyir ki, ölkədaxili problemləri ikinci plana çəkir ki, bütün gücü münaqişəyə yönəldildiyini nümayiş etdirsin. Düşünürəm ki, bu, çox uğursuz bir düşüncədir və Sarkisyan belə situasiyanı çox uzada bilməz. İkincisi isə Cənab Prezident fevralın 8-də keçirilən YAP-ın qurultayında demişdir ki, biz tezliklə İrəvana qayıdacağıq. Cənab Prezidentin bu ifadəsi erməniləri bərk qorxuya salmışdır və aradabir atəşkəsi pozmaqla, demək istəyir ki, bizim də gücümüz var. Belə fikirlə atəşkəsi pozmaq gülməli çıxır. Çünki bu gün Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır və Ali Baş Komandanın hər bir əmrini qısa bir zamanda və layiqincə yerinə yetirməyə hazırdır. Aprel hadisələri də buna bir nümunə oldu. Belə olan halda, Sarkisyanın Azərbaycan Ordusu ilə üzüzə gəlmək düşüncəsi gülüş doğurur.

*- Ermənistanda orduya getməkdən imtina açıq bir müstəviyə keçirilib. Bu baxımdan, demək olarmı ki, Sarkisyan və onun komandası ordudakı boşluğu doldurmaq üçün xarici muzdlulardan yararlanmağa cəhd etmək fikrindədir?*

- Təbii ki, Ermənistan ordusunda əsgər qıtlığı yaşanır. Onun da kökündə Ermənistandakı yoxsulluq, səfalət üzündən hər il 10 minlərlə vətəndaşın ölkəni tərk etməsi dayanır. Ölkədən qaçanlar da, əsasən gənclərdir. Ölkə əhalisinin tərkibinə diqqət yetirdikdə, biz görürük ki, Ermənistanda qalan insanların əksəriyyəti yaşlılar və qadınlardır ki, onlar da orduya yararlı deyil. Həm də ordudakı ağır vəziyyət də gənclərin xidmət etmək istəməmələrinə və bunun kütləvi hal alınmasına gətirib çıxarmışdır. Ona görə də, Sarkisyan çalışacaq ki, xarici muzdluları ölkəyə cəlb etsin. Amma bunun üçün də böyük maliyyə tələb olunur ki, o da bu gün Ermənistanda yoxdur. Sonda qeyd etmək istəyirəm ki, Ermənistan bu illər ərzində Azərbaycan torpaqlarını işğal altında saxlamaqla, hər bir müstəvidə uduzmuş və müstəqilliyini tam şəkildə əlindən vermişdir.

**GÜLYANƏ**

# Ağcabədidə "700 min ağac əkək" kampaniyası uğurla davam etdirilir

***Ağcabədidə cari ilin noyabr ayından başlayan Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi münasibətilə "700 min ağac əkək" kampaniyasının II mərhələsinə fevral ayının əvvəllərindən start verilib.***



Növbəti ağacəkmə kampaniyası Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin 5 meşəbəylik ərazisində keçirilib. Ağacəkmə kampaniyasında YAP Ağcabədi rayon təşkilatının fəalları və Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin işçiləri iştirak ediblər. İməcilik zamanı 1300 nar və tut tingi əkilib.

"700 min ağac əkək" kampaniyası çərçivəsində payızda əkilən 11470 ağacla birlikdə YAP Ağcabədi rayon təşkilatı fəallarının iştirakı ilə 12770 ağac əkilmişdir.

# YAP Ağdam rayon təşkilatı növbəti ağacəkmə kampaniyası keçirib



***Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi ilə əlaqədar "700 min ağac əkək" kampaniyası çərçivəsində YAP Ağdam rayon təşkilatı tərəfindən növbəti ağacəkmə aksiyası keçirilib.***

Aksiyada YAP Ağdam rayon təşkilatının fəalları, ərazi ilk partiya təşkilatının sədrləri və YAP üzvləri iştirak ediblər. Rayonun Bayraq Meydanı ərazisində və Soltanbud meşəsində 980 ədəd ağac əkilmişdir. Ümumilikdə, aksiya müddətində 6500 ədəd ağacın əkilməsi nəzərdə tutulmuşdur. Bu günə qədər 4700 ədəd ağac əkilmişdir.

**ZÜMRÜD**

# Azərbaycanda modul tipli məktəblərin sayı artır

## *Ölkə başçısının Sərəncamı ilə Ağdam, Laçın, Füzuli və Tərtər rayonlarında 444 şagird yerlik modul tipli 8 məktəb quraşdırılacaq*

***Bu gün ölkəmizin qarşısında duran əsas vəzifələr uğurla icra edilir. Azərbaycanın uğurlu inkişafı təmin edilir, təhlükəsizlik yüksək səviyyədə qorunur və ictimai-siyasi sabitlik möhkəmlənir. Demokratik cəmiyyət quruculuğu, dünya birliyinə inteqrasiya sahəsində ciddi nailiyyətlərə imza atan Azərbaycan dünya ölkələri ilə münasibətlərini suverenliyə və ərazi bütövlüyünə hörmət, sərhədlərin toxunulmazlığı və daxili işlərə qarışmamaq kimi beynəlxalq norma və prinsiplər əsasında quraraq, beynəlxalq birliyin etimadını qazanıb.***



Ölkə başçısının rəhbərliyi ilə son 14 il ərzində Azərbaycanda bütün sahələrdə yüksək nailiyyətlər qazanılıb, bölgələrdə sosial-iqtisadi inkişafla bağlı infrastruktur layihələri, köklü iqtisadi islahatlar həyata keçirilib. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində, ölkəmiz getdikcə daha da yeniləşir, iqtisadi islahatları reallaşdıran və innovativ inkişafa yol açan dövlətə çevrilir. Son illərdə ölkə rəhbərliyinin yüksək diqqət və qayğısı ilə təhsil sahəsində də böyük uğurlara imza atılıb. Bütün ölkə ərazisində təhsilin keyfiyyət göstəricilərinə əhəmiyyətli təsir göstərən məktəbə hazırlığın əhatəliliyinin genişləndirilməsi prioritet hesab edilir. 2016-2017-ci dərs ilindən etibarən ümumi təhsil müəssisələrində dövlət büdcəsi hesabına məktəbə hazırlıq qrupları təşkil olunub və 5 yaşlı uşaqların 55 faizi həmin qruplara cəlb edilib. Bu dərs ilində isə məktəbə hazırlıq qruplarında uşaqların əhatəliliyi 65 faizə çatdırılıb. Bu uğurları qeyd edərkən, təkcə ötən ildə ölkədə 133 yeni məktəbin tikildiyini, 14 məktəbin əsaslı təmir edildiyini, 500-ə yaxın məktəbdə isə cari təmir işləri aparıldığını qeyd etməliyik. Bu statistik rəqəm təhsilə dövlət qayğısının göstəricilərindəndir. Yüksək və keyfiyyətli təhsildən danışırıqsa, müasir standartlara cavab verən təhsil ocaqlarını olması zəruət yaradır. Təbii ki, cari ildə də məktəblərin tikilməsi, bərpa və təmir olunması nəzədə tutulub. Belə ki, bölgələrdə yüzlərlə məktəbdə təmir işləri aparılacaq. Bakı şəhərində isə 12 məktəb əsaslı təmir ediləcək. Bununla yanaşı, 14 təhsil müəssisəsinin tikintisi də nəzərdə tutulur.

Xatırladaq ki, son illərdə reallaşdırılan infrastruktur layihələri çərçivəsində tikilən, əsaslı təmir edilən 3104 məktəbdən 2826-sı (91%) regionların payına düşür. O cümlədən, ötən il ölkəmizin 40-dan çox bölgəsində 106 qəzalı vəziyyətdə olan təhsil müəssisəsi modul tipli məktəblə əvəz olunub.

Ölkəmizdə təhsil infrastrukturunun yenidən qurulması məqsədi ilə bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyev Sərəncam imzalayıb. Sərəncama əsasən, Ağdam, Laçın, Füzuli və Tərtər rayonlarında cəmi 444 şagird yerlik modul tipli 8 məktəb quraşdırılacaq. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.11.2-ci yarımbəndində göstərilmiş məbləğin 2 590 000 (iki milyon beş yüz doxsan min) manatı Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ayrılacaq.

Modul tipli məktəblər Balakən, Sabirabad, Şəki, Quba, Qusar, Neftçala, Kürdəmir, Ağdaş, İsmayıllı, Tovuz, Göygöl, Tərtər, Göyçay, Qəbələ, Oğuz və digər rayonlarda inşa olunub. Modul tipli məktəblərin üstünlüyü onların azməsrəfli olması ilə yanaşı, qısa müddət ərzində, istənilən relyefdə quraşdırılması, asan daşınması və sinif otaqlarının sayının şagirdlərin sayına uyğun olaraq rahatlıqla azaldılıb-artırılmasıdır.

Görülən işlərin davamı olaraq, qeyd edək ki, cari ildə, ümumilikdə, 41 rayonda 137 modul tipli məktəb inşa olunacaq.

**Nəzakət ƏLƏDDİNQIZI**

TƏRS BAXIŞ

# Tofiq Yaqublu məsələsi "şişir"

## Arif Hacılı özünü belə ifşa etdi

**Müsavat partiyasının başqanı Arif Hacılının müavini Tofiq Yaqublunu postundan uzaqlaşdırmasının ardınca yaranan səs-küy hələ də səngimir. Xüsusilə, AXCP və "Milli Şura" kuluarlarında Hacılının bu qərarı sərt şəkildə pislənilir, hətta sosial şəbəkələrdə kəskin tənqid olunur. Məsələ ondadır ki, Müsavatın hələ 2013-cü ildə AXCP sədri Əli Kərimlinin patronajlığı altındakı "Milli Şura"nın sıralarını tərk etməsi sonda iki "ana müxalifət" iddiasında olan siyasi təşkilat arasında dərin uçurum yaratdı. Məhz bundan sonra Müsavatda uzun illər müavin postuna sahib olan T.Yaqublunun "Milli Şura"da qalması, eləcə də, bu qurumun koordinasiya mərkəzində yer alması, əlbəttə ki, müsavatçıları qıcıqlandırmaya bilməzdi.**





### Müsavat başqanı: "Tofiq Yaqublunu bu vəzifəyə mən təyin etmişdim"

A.Hacılı T.Yaqubluya buna qədər bir neçə dəfə xəbərdarlıq edilmişdi, lakin o, bu xəbərdarlıqlara etinasız qalaraq, özünü Ə.Kərimlinin nəzarətində olan "Milli Şura"ya daha yaxın görmüşdü. Nəticədə, gözlənilən olay baş verdi və onun başqan müavini postundan istefası gerçəkləşdirildi.

Bu arada, Müsavat başqanı A.Hacılı ətrafında gedən söz-söhbətlərə son qoymağa cəhd etsə də, onun bu addımı özünüifşa ilə nəticələnib. "Milli Şura" və AXCP tərəfdarlarının onun məlum qərarı ətrafında sərt fikirlər səsləndirmələrindən sonra özünün "facebook" səhifəsində münasibət bildirən A.Hacılı yazıb ki, müavin və digər icra strukturlarına partiya üzvünün təyin olunması və xaric edilməsi partiya başqanının hüququdur:

"T.Yaqublunu bu vəzifəyə mən təyin etmişdim. T.Yaqublu o zaman da "Milli Şura"nın üzvü idi. Müsavat partiyası isə, artıq bu qurumdan çıxmışdı. Ona görə də bu qərarın "Milli Şura" ilə əlaqələndirilməsi əsassız və yersizdir".

### Arif Hacılı vaxtilə T.Yaqublunu başqan müavinliyinə təyin edibsə, nəyə görə 5 il ərzndə onu müavinlikdən azad etməyib?

Məhz bu münasibətin fonunda, belə bir sual formalaşır ki, əgər Müsavat partiyası, bütövlükdə "Milli Şura"nın tərkibindən çıxıbsa, bu partiyanın səlahiyyətlisinin, yeni T.Yaqublunun sonrakı 5 il müddətində həmin qurumda qalması, bilavasitə partiya rəhbərliyinin zəifliyi hesab edilə billməzmi? Hərgah, A.Hacılı vaxtilə T.Yaqublunu başqan müavinliyinə təyin edibsə, nəyə görə 5 il ərzində onu müavinlikdən azad etməyib? Deməli, Hacılı, sadəcə, zəiflik nümayiş etdirib və əslində, bu zəifliyini gizlətmək üçün, indi-indi bu cür tonda münasibət bildirməyə başlayıb.

### Hacılıdan gülünc iddia, yaxud Müsavat partiyasında cərəyan edən son hadisələr bu siyasi təşkilatın "əhəmiyyətindən" xəbər verirmiş?

Yaxud A.Hacılı bu səpkidə digər fikirləri ilə öz zəif idarəçiliyini dolayısı ilə etiraf etmiş olur. Misal üçün qeyd edir ki, guya digər siyasi təşkilatlarda kimin müavin və ya başqa vəzifəyə gəlməsi və ya vəzifədən ayrılmasından heç kəs xəbər tutmur və guya Müsavat partiyasında cərəyan edən son hadisələr bu siyasi təşkilatın "əhəmiyyətindən" xəbər verirmiş (?).

Görünür, Hacılı ya özünü, ya da ətrafındakıları anlaqsız yerinə qoymaqla, öz anlaqsızlığını gizlətməyə cəhd edir. Çünki ölkədə fəaliyyət göstərən bütün partiyalarda istefa, vəzifəyə təyin olunma, yaxud da partiya sıralarından kənarlaşdırılma halları mediaya sızır və ictimailəşir. Ona görə də, Müsavat daxilindəki çəkişmələrin bu cür tərzdə ört-basdır edilməsi cəmiyyətdə istehza doğurmaqdadır. Daha dəqiq desək, parçalanmış və hazırda da parçalanmaqda davam edən bir siyasi təşkilatın ictimai rəyə zorla "əhəmiyyətli" olması ətrafında fikirlərin yürüdülməsi kifayət qədər absurdluğu ortaya çıxarmış olur.

*Rövşən RƏSULOV*



Deyim, deməyim?

AFƏT

**Bilən varsa, mənə də desin. Bu deyəsən, "bilənlər bilməyənlərə söyləsin" məsəlinə döndü. Ancaq mən nə Əli Kərimlinin özündən, nə onun apardığı siyasətdən, nə də rəhbərlik etdiyi partiyasının siyasi dəsti-xəttindən, ümumiyyətlə, heç nə anlaya bilmirəm.**

Guya həmişə "siyasi proqnozlar" verməklə, ictimai rəyin diqqətini öz üzərinə çəkmək istəyir. Adama deyərlər, "ayağını yorğanına görə uzat". Di gəl ki, bu proqnozlar heç vaxt özünü doğrultmur. Elə buna görə də, bu "ağıllı da" qüsurların olmasını inkar etmək olmaz. Ona elə gəlir ki, gizli, üstüörtülü siyasət aparmaqla, guya fərqli "lider"dir. Lap dəvəquşunun kolda gizlənməsinə döndü. Çünki AXCP-nin konkret nə ideologiyası, nə də siyasi arenada özünəməxsus bir yeri olmayıb, olmayacaq da. Demək olar ki, AXCP-nin nəyə xidmət etdiyi də məlum deyil. Yox, məlum deyil deyəndə, əslində, nəyə və kimlərə xidmət etdiyi məlumdur, amma özlərini elə aparırlar ki, guya hər şeydən uzaqdadırlar. Amma orasını da deyim ki, ümumiyyətlə, köhnə təfəkkür üzərində siyasi partiya idarə etmək qeyri-mümkündür. Siyasətçi olmasam da, mən bunu qandım, ay camaat, bu niyə qanmır, bilmirəm?!

Ümumiyyətlə, sürətlə inkişaf edən aləmdə siyasi durumlara uyğun çevik siyasət apara bilməyən müxalifət partiyalarından istefaların və parçalanmaların tez-tez baş verməsi labüddür. Dünyada baş verən dəyişikliklərlə müxalifətçilərin ayaqlaşa bilməməsi göz önündədir. Bu gün dünyada, həqiqətən də, sürətli dəyişikliklər gedir. Amma bəzi siyasi qüvvələrin qabiliyyəti o qədər zəifdir, demək olar ki, yox dərəcəsindədir. Belə qüvvələr dəyişikliyə uyğunlaşa bilmir. Ona görə də, belə qüvvələr köhnə siyasətlərini davam etdirəndə indiki situasiya ilə uzlaşa bilmir, ziddiyyətlər yaranır, nəticədə, həmin qüvvələr itkilərə məruz qalır. Di nə məcburdu, nə ölümdü, nə özünüzə əl qatmısınız? Görmürsüz ki, bu, siz girən kol deyil? Atalar demiş: "Qoca var ki, qocalanda mələkləşir, qoca da var qocalanda köpəkləşir". İndi də bunlar, uzun illərin təcrübəsindən sonra müdrikləşmək əvəzinə, daha da aqressivləşirlər. Allah axırlarını xeyir eləsin, yazıqdılar...

# "Milli Şura" da belə gedir...

## Və ya bənzər qurumların bənzər taleləri

**Dağıdıcı müxalifətin ağır vəziyyətə düşmə səbəbləri, məhz düşüncəsiz liderlərinin qarşılarına qoyduqları hədəflər uğrunda düzgün mübarizə aparmamalarıdır. Əslində, onların əsas məqsədi biri digərini sıradan çıxarmaqdır.**

Partiya rəhbərliyinin fikri odur ki, rəqibini hansı yolla olur-olsun, sıradan çıxarmaq və "ana müxalifət" olmaq iddialarını reallaşdırmaqdır. Bu təfəkkürdə olduqları müddətdə, olaylar belə də davam edəcək. Nə qədər ki, müxalif düşərgədə təmsil olunanlar ayrı-ayrı fərdlər ətrafında birləşəcəklərsə, ağır durum olduğu kimi qalacaq. Əslində, partiyalar ideya əsasında yaranmalıdır. Amma müxalifət ayrı-ayrı fərdlər ətrafında yaranmış, eləcə də, şəxsi dividendlərə hesablanmış partiya "idarəçiliyindən" ibarətdir. Belə deyək ki, əgər partiya sədri hər hansı qərarı verirsə, partiyada təmsil olunan şəxslər də o qərara uymalıdır. Daha doğrusu, demokratik dəyərlərə söykənən kimsə başqanına qarşı əks-fikir söyləyərsə, onun fikiri diqqətə alınmayaraq, "xəyanətkarlıq" adlandırılacaq. Dağıdıcı müxalifətin də məğzi budur! Yaxud əgər hər hansı şəxs öz liderinin verdiyi qərara əks-fikir söyləmiş olsa, o halda, ya onu partiyadan uzaqlaşdıracaqlar, ya da onu mətbuatda və ya sosial şəbəkələrdə rüsvayi-cahan edəcəklər. Nə qədər ki, radikal düşərgədə mövcud olan partiyalar anormal fəaliyyət göstərəcək, həmin partiyalarda heç bir irəliləyişdən, ümumiyyətlə, söhbət gedə bilməz. Əksinə, radikallar arasında düşmənçiliklər get-gedə gərginləşəcək.



### "Gedəni saxlamazlar" deyib atalar...

30 ilə yaxındır ki, müxalifət "fəaliyyət" göstərsə də, partiyalar arasında dərin ziddiyyətləri aradan qadırmaq mümkün olmayıb. Təcrübələr də, onu göstərir ki, bu ziddiyyətləri aradan qaldırmaq qeyri-mümkündür. Demək olar ki, bu, elə birbaşa həmin partiya rəhbərlərinin istəkləri ilə bağlıdır. Yəni dağıdıcı müxalif partiya sədrlərinin istəkləri bir-biri ilə kəskin şəkildə toqquşur və buna görə də, biri digərinə güzəştə getmək fikrində heç vaxt olmayıb, indi də belədir. Sadəcə olaraq, partiya liderləri hərə öz partiya üzvlərinin təklifi ilə bu və ya digər birliklər yaradırlar. Lakin həmin birliklər çox keçmədən dağılır. Vaxtilə yaradılmış "SİDSUH", "DUH", "MKM", "Azadlıq" siyasi bloku, "İctimai Palata" da bu qurumlar siyahısındandır. "Milli Şura"da isə cəmləşən partiyalar müxtəlif şəxslərin maraqları ətrafında yaradılmış bir qurumdur. Yəni buraya yığılanlar hər hansıya bir ideoloji proqram ətrafında formalaşmış partiyalar deyil. Bir sözlə, fərdi şəxslərin maraqlarına xidmət edən partiyalar olduqlarına görə, həmin partiyalar arasında da münasibətlər, məhz həmin fərdlərin şəxsi münasibətləri ilə eyni səviyyədədir. Əslində, çox gözəl başa düşürlər ki, bunun heç bir nəticəsi olmayacaq. Ona görə də, elə "Milli Şura" da öz ömrünü başa vurmaqdadır. Yəni "Milli Şura"ya nə özümüzdə, nə də xarici havadarlarında heç bir diqqət yoxdur. Belə ki, "Milli Şura"nın cəmiyyətdə nüfuzu, demək olar ki, yoxdur. Bu baxımdan da, "Milli Şura"nın mövcud olub-olmamasının və bu qurum nə özləri üçün, nə də cəmiyyət üçün heç bir əhəmiyyət daşımır. Necə ki, bu fikirləri digər dağıdıcı müxalifət "birliklərinə" də əlavə etmək olar.

*Afət TAHİRQIZI*

### Bu ilin ilk ayında Azərbaycana minə yaxın avtomobil idxal olunub



2018-ci ilin yanvar ayında Azərbaycana idxal olunan avtomobillərin sayı 986 ədəd olub. Dövlət Gömrük Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, ölkəyə gətirilən avtomobillərin 4 ədədi sürücü daxil olmaqla 10 nəfər və ya daha çox adam daşımaq üçün nəzərdə tutulmuş motorlu nəqliyyat vasitələri, 908 ədədi əsasən adamların daşınması üçün nəzərdə tutulmuş minik avtomobilləri və digər motorlu nəqliyyat vasitələri, 73 ədədi yük daşımaq üçün motorlu nəqliyyat vasitələri, 1 ədədi isə xüsusi təyinatlı motorlu nəqliyyat vasitələridir.

# İnsan hüquqlarının universallığı

***İnsan hüquqlarının universallığı bütün insanların bu hüquqlardan eyni mənada yararlanmaları və istifadə etmələridir. İnsanlar, hansı mədəniyyətə sahib olursa-olsun, hər insanın eyni dərəcədə ləyaqəti vardır. Əsasən, insan hüquqlarının universallığı, uydurma və xəyali bir fərziyyə deyildir.***

Konkret bir dünyagörüşü olan hər bir insan milliyyətindən, dinindən və irqindən asılı olmayaraq, bu dəyərlər ətrafında birləşər. İnsan hüquqlarının universallığını inkar edən post-modernist yanaşma özünə tərəfdar toplaya bilmədi. Dr.Fərhad Mehdiyev yazır:" Bu fikir, əsasən, Qərbdə bəzi imperialist qüvvələrin xarici siyasətlərinin legitimlik fəlsəfəsini təşkil edir. BMT səviyyəsində insan hüquqlarının universal bir dəyər olma prinsipi hələ qorunacaqdır. Qaldı ki, "Asiya dəyərləri" anlayışı özlüyündə qeyri-müəyyən anlayışdır. Dünya əhalisinin 60%-i Asiyada yaşayır. Bu qədər geniş regionda yaşayan müxtəlif əhali arasında nəyi Asiya dəyəri kimi qəbul edə bilərik? Əslində, Asiyanı vahid dəyər sistemi görmək istəmə anlayışı, Asiyadan yox, Avropadan gəlir, özü də bunda siyasi motivlər yer alır. Digər tərəfdən, buddizm də, islam da Asiya mədəniyyəti olduğu halda, bunlar arasında kəskin fərqlər var. Habelə, azadlıq anlayışı hər ikisində böyük əhəmiyyət kəsb edir. Dövlət avtoritarlığı Asiya mənşəli deyildir. Sadəcə olaraq, bəzi Qərb dövlətləri və oradakı dairələr, xarici siyasətdəki imperialist davranışları haqlı göstərmək üçün, Asiya dəyərlərinin fərqli olduğunu, ona görə də, bu ölkələrə qarşı fərqli siyasət aparmağın haqlı olduğunu irəli sürürlər. Nə Qərbdə, nə də Asiyada tiraniya və ədalətsizlik, vətəndaş cəmiyyəti üçün xoş bir hal kimi sayıla bilməz. Digər tərəfdən, insan hüquqları üzrə müasir Qərb alimləri, əsla, Asiya dövlətləri üçün ayrı standartların ola biləcəyini və bu dövlətlərə qarşı fərqli rəftarın tətbiq oluna biləcəyini qəbul etmirlər".

İnsan hüquqları üstün olduğuna görə, dini dəyərlər tənqidə məruz qalır, çünki iddia olunur ki, dini ehkamlar, nəinki insan hüquqlarını qorumur, hətta onları pozur. Din isə, insanın daxili aləmini və saflığını, insan ilə onun yaradıcısı arasındakı münasibətləri tənzimlədiyi halda, insan hüquqları şəxslərin ləyaqətinin qorunması məqsədini güdür. Dini qaydalar insan və cəmiyyət həyatının bir çox sahələrini tənzimləyir. Xristianlıqda da, islamda da bu qayda eynidir. Lakin qaydaların hamısı heç də İlahi mənşəli deyildir, böyük bir qismi də dünyəvi və sosioloji mənşəlidir. Max Weber liberal sistemlərin yerləşməsində şəxsi məsuliyyət, kilsənin dövlətdən ayrılmasını və demokratik ictimai həyatı müdafiə etməklə protestantlığa mühüm yer ayırırdı. İslamdakı ənənəvi məzhəblər, 7-8-ci əsrlərdə formalaşdıqlarına görə, bu məzhəblər zamanın tələblərindən yaranmışdı. Dinə qarşı irəli sürülən ittihamlar dinin yaxşı qavranılmamasından irəli gəlir.

Başqa dindən olanlara qarşı dözümsüzlük heç bir dində ehkam olmayıb. Amma faktiki olaraq, dindaşların başqa dindən olanlara neqativ münasibət bəsləməsi sosioloji və psixoloji bir haldır. İnkişaf etməmiş və cahil insanların bir xüsusiyyəti var - onlar müxtəlif əsaslarla başqalarına qarşı üstünlük iddiasında olurlar: bu meyarlar coğrafi və sosial mənşəli ola bilər. "Din fərqi" də bunlardan biridir. Halbuki insanların bir-birindən üstün olması mübahisəli məsələdir. Bu üstünlük onların cəmiyyətə verdiyi fayda ilə ölçülməlidir. Dr.Fərhad Mehdiyev yazır: "Peyğəmbər Hz.Məhəmməd deyərdi: "Kafir də olsa, məzlumun haqqına əsla girməyin, onu incitməyin. Bu hədisdə məzlumlardan bəhs olunur. Məzlum - imkansız, köməksiz, ehtiyacı olan ağır həyat şəraitində olan, sıxışdırılmış şəxsdir. Dininə və dilinə, cinsiyyətinə və rənginə baxılmadan, onun sıxışdırılması, haqqı olanın ona verilməməsi, o imkansız insandan nəyinsə zorla alınması qadağan olunur. Buradan bunu anlayırıq ki, qeyri-müsəlmanların da hüquqları universal mahiyyətdədir. Habelə, dünyadakı haqqədalətin dini mənşəyə aid olmadığı bəlli olur: haqq və ədalət naminə uca Yaradan, ona inanmayan insanın istəyini də qəbul edir (insanların bərabərliyi). Düzdür, müxtəlif ayə və hədislərdə buna zidd kimi görünən mənalar çıxarıla bilər, lakin belə bir təfsir xətasının səbəbi, məsələyə bir bütöv olaraq yanaşılmamasından (bu da, öz nöbvəsində cəhalətdən) irəli gəlir. Dində siyasi hüquqların yaşanmasına gəldikdə, daha doğrusu, başqa dindən olanların bu hüquqa sahib olub-olmamalarına, bunların dövlət idarəsində olmağını qadağan edən açıq bir dini doqma heç vaxt olmayıb. Bunu bir qayda halına gətirməyə imkan verən hədis də yoxdur."

Başqa dindən olanların seçki hüququnun tanınmasının dinə heç bir zərəri ola bilməz. Azadlıq, mülkiyyət, şəxsi həyat, fikir və din, söz azadlığı, toplaşma və birləşmə azadlığını əngəlləyən hər hansı dini qayda mövcud deyildir.

Müasir universal insan hüquqları institutu ilə uyğunlaşmayan məqamlar da mövcuddur. Bunlar ölüm cəzası, qisas və bədən cəzalarıdır. Zinaya görə cəza yəhudilikdə, xristianlıqda və islamda da var. "Gözə göz, dişə diş" prinsipi üçün vəziyyət eynidir. Oğurluğa görə islamda cəza var. Həzrəti Peyğəmbər buyururdu: "Sizə, xüsusən, qadınları və köləni tapşırıram, onlarla mərhəmətli davranın". Qadınlar haqqında kölələrlə bərabər bəhs edilməsi, bunların eyni vəziyyətdə olduqlarına görə deyildi, hər iki qrupun çox zəif və həssas qrup olmalarından dolayı idi. Dini hüquq liberalizm anlayışı ilə, demək olar ki, eynidir. Dini etiqad azadlığı insan hüquqlarının qoruduğu əsas hüquqlardan biridir.

Fərhad Mehdiyevin fikrincə, qeyri-hökumət təşkilatları universal insan hüquqları sahəsində vacib amil sayılır. Həqiqətən də, müasir cəmiyyətdə bunlar, sadəcə, vətəndaş cəmiyyətinin ünsürü deyil, eyni zamanda, insan hüquqlarının yaşanması və qorunmasında zəruri mexanizmdir. QHT-lər, birinci növbədə, birləşmə azadlığının təzahürüdür. Bunlar vətəndaş cəmiyyətini möhkəmləndirir, ictimai rəyin formalaşmasına və güclənməsinə xidmət edirlər. Bunlar olmadan isə, insan hüquqlarının reallaşması mümkün deyildir. Bizim burada əsas vurğulamaq istədiyimiz isə, insan hüquqları sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarıdır. Əvvəlcə bu təşkilatları milli və beynəlxalq təşkilatlar olaraq ikiyə ayırmalıyıq. İnsan hüquqlarının reallaşmasında hər iki qrupdan olan təşkilatların özünəməxsus əhəmiyyətli yeri vardır. Milli QHT-lərin varlığı da ölkədə insan hüquqlarının yaşanması üçün olduqca zəruridir. Bunların fəaliyyəti müxtəlif məqsədlərə yönəlir. Bir tərəfdən, bunlar insan hüquqları sahəsində maarifləndirmə işini həyata keçirir, müxtəlif təbəqələrə müvafiq təlimlər həyata keçirir - hüquqşünaslara, hüquq-mühafizə işçilərinə, tələbələrə, azlıq mənsublarına, siyasi partiyalara və s. Digər tərəfdən, bunlar ölkədə həqiqi vəziyyətin necə olduğunu üzə çıxarır, insan hüquqları pozuntularının səbəblərini aşkar edib, ictimaiyyətə çatdırır. Habelə, bu təşkilatlar qanun lahiyələri təqdim etməklə, ictimai debatlar təşkil etməklə, siyasi vasitə-çilik fəaliyyətini həyata keçirmək kimi tədbirlərlə, mövcud vəziyyətin düzəldilməsi istiqamətində də fəaliyyət göstərirlər.

Seçki hüququ xalqın iradəsini azad ifadə edən demokratik təsisatlardan biridir. Seçki sistemi konstitusiya hüquqi normaları ilə tənzimlənir. Seçki hüququ dövlət hakimiyyəti, yerli özünüidarəetmə, bütövlükdə, hüquqi sistemin səmərəliliyini yüksəldən əsas amildir. Seçki hüququ xalq suverenliyinin ifadəsi və xalq hakimiyyətini həyata keçirmək formasıdır. Belə ki, seçki hüququnun əsas ünsürləri bunlardır: 1) Seçmək hüququ-fəal seçki hüququ. 2) Dövlət hakimiyyət və orqanlarına və yerli özünüidarə orqanlarına seçilmək hüququ - passiv seçki hüququ. 3) Seçicilərin etimadını qazanmamış seçilmiş şəxsləri geri çağırmaq. Konstitusiyanın 56-cı maddəsində vətəndaşların dövlət orqanlarına seçmək və seçilmək, referendumda iştirak etmək hüququ təsbit edilmişdir.

Demokratik seçki xalqın dövlət idarəçiliyi prosesində daha məqsədyönlü iştirakına və bütün bunların sintezinin məntiqi yekunu kimi cəmiyyətin, dövlətin sivil inkişafına geniş imkanlar açır. Demokratik seçkinin ən əsas şərti hesabat vermək məsuliyyətindən əlavə həm də aşkarlıq, şəffaflıq, obyektivlikdir. Demokratik cəmiyyətlərdə seçicilərin azad seçim hüququna kənar müdaxilələrin minimuma endirilməsi üçün onların gizli səs vermək hüquqları təmin olunmuşdur.

ABŞ-da demokratiya - hüquqi dövlət-idarəetmə sistemi əhalinin geniş təbəqələrinin maraqlarını ifadə edir və qoruyur. Hüquqi dövlətdə xalqın seçdiyi nümayəndələr ona hesabat verirlər. ABŞ tədqiqatçısı M.Parenti hesabat verməyin mahiyyətini belə açır: "Hesabat vermək nümayəndələrin açıq tənqidi, onların seçki yolu ilə mərhələli yoxlanılması kimi başa düşülür və zərurət yarandıqda, vəzifələrindən geri çağırılırlar". O, demokratiyanı "zülmkar mütləqiyyətə zidd idarə üsulu hesab edir və göstərir ki, demokratik sistemdə konstitusiya və qanunlar, bir növ, qaydaların külliyyatını ifadə edir.

Söz azadlığı və məlumat almaq hüququ cəmiyyətdə plüralizmin, müxtəlif siyasi, iqtisadi, mənəvi ideya və dəyərlərin həyata keçməsini təmin edən demokratik prinsiplərdəndir.

Söz azadlığı vətəndaş cəmiyyəti və hüquqi dövlətin əsasını təşkil edir. Bu azadlıq demokratik və tolerant cəmiyyətin mövcudluğu formasıdır. Hüquqi dövlətdə heç bir vətəndaş söz azadlığına görə təqib oluna bilməz. Məlumat azadlığı söz azadlığından ayrılmazdır. Konstitusiyanın 50-ci maddəsində hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığına, kütləvi informasiyanın azadlığına təminat verildiyi, KİV-də, mətbuatda dövlət senzurasının qadağan olunduğu təsbit olunmuşdur.

Söz, mətbuat və informasiya azadlığı müəyyən qaydalar daxilində məhdudlaşdırıla bilər. Söz azadlığının məhdudlaşdırılması iki əhəmiyyət kəsb edir. Birincisi, o qadağanedici normaların (etika, hüquq) xarakterinə əsaslanır. İkincisi, o, normaların təsir yönümünə (din, hakimiyyət və şəxsiyyət) aiddir.

Müasir konstitusiyalarda vətəndaşların siyasi fəallığının formalarından biri kimi sərbəst toplaşmaq hüququ təsbit olunmuşdur. Konstitusiyanın 49-cu maddəsində "hər kəsin başqaları ilə birlikdə sərbəst yığışmaq, yığıncaqlar, mitinqlər, nümayişlər, küçə yürüşləri keçirmək və piketlər düzəltmək hüququna təminat" verilmişdir. Bu demokratik təsisatlar ictimai və hüquqi dövlət həyatının problemlərinə dair kütləvi və fərdi münasibətin açıq formasını ifadə edir. Sərbəst toplaşmaq hüququ vətəndaş cəmiyyətinin dövlət hakimiyyət orqanlarının fəaliyyətinə nəzarət vasitəsi və müasir demokratik dövlət atributudur.

İctimai təşkilatlarda və birliklərdə birləşmək hüququ vətəndaşın siyasi fəallığını artırır və cəmiyyətin ictimai-siyasi həyatında iştirakını təmin edir. İctimai birliklərin və təşkilatların aşağıdakı formaları mövcuddur: ictimai hərəkatlar, ictimai fondlar, siyasi partiyalar, həmkarlar ittifaqları, sahibkarlıq, xeyriyyə cəmiyyətləri və s. Gizlin hərbiləşdirilmiş təşkilatların, konstitusiya quruluşunu zorla devirmək məqsədi güdən partiyaların yaradılması və fəaliyyəti qanunla qadağan edilib. Konstitusiyanın 58-ci maddəsində hər kəsin birləşmək, ictimai birlik və təşkilat yaratmaq hüququna təminat verilmişdir.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 20 fevral


## İtaliyalı tatu rəssamı dünya rekorduna imza atıb



İtaliyanın Modena şəhərindən olan tatu rəssamı insan üzərində 60 saatdan çox davam edən tatu seansı həyata keçirərək dünya rekorduna imza atıb. Yeni rekordun sahibi 10 ildə 14 dünya rekordu qıran Alli Tatu ləqəbli Alessandro Bonakorsidir. AZƏRTAC İtaliyanın ANSA agentliyinə istinadən xəbər verir ki, Alessandro Bonakorsi seansa fevralın 14-ü səhər başlayıb və əvvəlki 52 saat 56 dəqiqəlik rekordu geridə buraxaraq 60 saat davam edən tatu seansı həyata keçirib.

## Artıq çəkinin qarşısını alan meyvəkökü...



Yerkökü ən faydalı meyvəköklərindən sayılır, hələ eramızdan əvvəl III əsrdə onun əkilib-becərilməsinə dair məlumatlar var. Antik tibbin atası hesab olunan Hippokratın və Şərqin məşhur təbibi İbn Sinanın əlyazmalarında da bitki haqqında məlumatlara rast gəlmək mümkündür. Qədim zamanlarda istifadə edilən yerkökü sarı, ağ və bənövşəyi rəngdə olub. Ondan daha çox ətirli yarpaqları və toxumlarına görə istifadə edilib. Sonralar Hollandiyada mədəni sortların seleksiyası zamanı əldə edilən narıncı rəngli yerkökü daha şirin və yeməli olduğundan geniş şəkildə becərilməyə başlanılıb. 1991-ci ildə Avropa Şurasında yerkökü meyvə olaraq qəbul edilib.

AZƏRTAC tibbi saytlara istinadən xəbər verir ki, meyvəyə narıncı rəng verən beta-karotin vaxtından qabaq qocalmanın qarşısını alır, immun sistemini möhkəmləndirir və orqanizmə müsbət təsir göstərir. Beta-karotin tərkibinə görə yalnız şirin bibərdən geri qalan yerkökü dadına görə onu qat-qat üstələyir.

Artıq çəkinin qarşısını almaqda vacib rol oynayan yod və sellüloza yerkökünün tərkibində çoxluq təşkil edir. Yerkökü ilə qidalanmazdan əvvəl səliqə ilə yuyub xüsusi bıçaqla təmizləmək lazımdır. Bitkinin üst qatında faydalı maddələr toplandığına görə onun qabığını nazik soyanda həmin maddələr itkiyə getmir. Cavan yerkökünü soymadan, axar su altında şotka ilə tərtəmiz yuyandan sonra istifadə etmək daha yaxşıdır.

Boy və iştahaartırıcı təsirlərinə görə yerkökü uşaqların qidalanmasında əhəmiyyətli rol oynayır. Tərkibində 12 faiz şəkər olduğuna görə yerkökü meyvələri şirin dada malikdir, buna baxmayaraq şəkərli diabet zamanı da istifadə edilir. Lakin onun şirəsini içməkdənsə çiy halda yemək daha faydalıdır, çünki çiy halda bitki lifləri şəkərin sorulmasını zəifləndir. Minerallar və vitaminlərlə zəngin olduğuna görə yerkökü şirəsi süd verən analarda südün gündəlik miqdarını artırır, onun keyfiyyətini yaxşılaşdırır.

Həddindən artıq istifadə ediləndə yağda həll olan karotin maddəsi dərialtı piy qatında toplanaraq dərinin rəngini saralda bilər. Qaraciyər xəstəliyindən fərqli olaraq bu zaman gözün ağlı qişası saralmır və qanda bilirubinin miqdarı normal olur. Həmin vaxt yerkökündən istifadə edilməsini azaltmaq və bir müddət dayandırmaq lazımdır.

## Mariya Stadnik beynəlxalq turnirdə gümüş medal qazanıb



İsveçin Klippan şəhərində qadın güləşi üzrə açıq beynəlxalq turnir keçirilib. Bu, qadın güləşçilərin reytinq xallarının hesablandığı ilk yarışdır. Azərbaycan Güləş Federasiyasının məlumatına görə, komandamızın lideri Mariya Stadnik turnirdə uğurla çıxış edib. Əlli kiloqram çəki dərəcəsində mübarizə aparan təmsilçimiz Rumıniya, Kanada və ABŞ-dan olan rəqiblərini vaxtından əvvəl və tam üstünlüklə məğlub edib. Rəqiblərindən ümumilikdə 32 xal alan təmsilçimiz heç bir rəqibinə xal verməyib. Olimpiya Oyunlarının ikiqat gümüş və bürünc mükafatçısı, dünya və altıqat Avropa çempionu Mariya Stadnikin həlledici görüşdə rəqibi ötən ilki Asiya və dünya çempionu yaponiyalı Yui Susaki olub.

Gərgin keçən final qarşılaşmasında son saniyələrdə 2:1 hesabı ilə üstün olan Mariya Stadnik bu üstünlüyü qoruya bilməyib və qarşılaşma 2:2 hesabı ilə heç-heçə yekunlaşıb. Son xalı rəqib qazandığından qələbə rəqibə verilib və Mariya Stadnik turnirin gümüş medalına yiyələnib.

## "Qalatasaray" uduzdu, "Başakşehir" lider oldu



Futbol üzrə Türkiyə Super Liqasının 22-ci turunun növbəti oyunları keçirilib. "Başakşehir" komandası güclü "Trabzonspor" klubunun qonağı olub. Çempionluq uğrunda mübarizə aparan komandaların qarşılaşmasında "Başakşehir" minimal hesabla qalib gəlib - 1:0. Rəqib meydanında yeganə qolu Emmanuel Adebayor vurub. Bu oyundan sonra "Başakşehir" komandası xallarının sayını 46-ya çatdıraraq turnir cədvəlinin ilk pilləsinə yüksəlib. Sonra Türkiyə Superliqasının liderlərindən biri "Qalatasaray" səfərdə "Kasımpaşa" ilə oynayıb. Gərgin idman mübarizəsi şəraitində keçən matç 2:1 hesabı ilə meydan sahiblərinin xeyrinə başa çatıb. Beləliklə "Qalatasaray" çempionluq uğrunda mübarizədə səfərdə vacib iki xal itirib.

## Rafael Ağayevdən daha bir qızıl medal



Azərbaycan milli komandasının və "Qəbələ" İdman Klubunun karateçisi Rafael Ağayev növbəti uğuruna imza atıb. SİA-nın məlumatına görə, idmançımız Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən mötəbər Karate 1 Premyer Liqa turnirində iştirak edib. 75 kq çəki dərəcəsində çıxış edən R.Ağayev bütün rəqiblərinə qalib gələrək çempion tituluna yiyələnib. İdmançımız finalda macarıstanlı Qabor Harspatakini məğlub etməklə qızıl medalçı olub. Xatırladaq ki, 2018-ci il mövsümünün yeddi analoji turnirindən ikincisi olan Dubay mərhələsinə 74 ölkədən 626 idmançı qatılıb.

## Yeniyetmə cüdoçularımız Avropa kubokunda beş medal qazanıblar



İspaniyanın Fuenqirola şəhərində yeniyetmə cüdoçular arasında Avropa kuboku yarışı başa çatıb. Azərbaycan Cüdo Federasiyasının saytında yer alan xəbərə görə, 36 ölkədən 471 idmançının mübarizə apardığı beynəlxalq turnirin ikinci günündə Azərbaycan millisi 1 gümüş və 2 bürünc medal qazanıb.

Oğlanların mübarizəsində Yaqub İsmayılzadə (90 kq) gümüş, Hacıbala Cəbrayılov (73 kq) və Toğrul Salmanov (90 kq-dan yuxarı) bürünc medala sahib olublar. Beləliklə, yeniyetmə cüdoçularımız İspaniya turnirini 1 qızıl, 2 gümüş və 2 bürünc medalla başa vurublar. Xatırladaq ki, Avropa kubokunun ilk günü Vüsalə Kərimova qızıl, Mirağa Hacıyev isə gümüş medal qazanıblar.

## ELAN

İsmayılov Qasım Vəli oğlunun adına verilmiş əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

***

Xızı rayon Torpaq Şöbəsi tərəfindən İmamverdiyev Yadigar Nəsib oğluna məxsus 2.40 hektar torpaq sahəsinə verilmiş Dövlət torpağa mülkiyyət hüququna dair Dövlət Aktı sənədi (JN№0065, KOD 30610018) itdiyi üçün etibarsız sayılır.


**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**